Günəş Şərqdən doğur!

№ 207 (5728), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 15 noyabr 2022-ci il (çərşənbə axşamı)

## ABŞ Ermənistanda yerləşən Rusiya şirkətinə sanksiya tətbiq edib



**ABŞ Maliyyə Nazirliyi Rusiya ilə əlaqəli hüquqi və fiziki şəxslərə sanksiya tətbiq edib.**

Onlar Rusiyanın hərbi sənayesinə yardım etməkdə ittiham olunur.

Ümumilikdə, sanksiyalar 14 fiziki şəxs və 28 qurumu əhatə edir.

Onların arasında Ermənistanda yerləşən şirkət də var.

"Milandr"ın Ermənistanda yerləşən filialı "Milur Electronics" MMC mikroçiplər istehsal etmək və xaricə satışlar həyata keçirmək məqsədi ilə yaradılmışdır.

(Səh.2)

## İrandan zəng gəldi

XİN başçıları münasibətlərdəki son vəziyyəti müzakirə ediblər



**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahian telefon danışığı zamanı iki ölkə arasında münasibətlərdə yaranmış son vəziyyəti müzakirə ediblər.**

Bu barədə "Şərq"ə Azərbaycan Xarici İşlər Nazirliyindən bildirilib.

Nazirlər ikitərəfli gündəliyin aktual məsələlərini, habelə regional vəziyyəti müzakirə ediblər.

Tərəflər iki ölkə arasında münasibətlərdə yaranmış son vəziyyətin, ictimai ritorika ilə bağlı narahatlığın və digər mövcud problemlərin qarşılıqlı dialoq və anlaşma çərçivəsində həll edilməsinin zəruri olduğunu bildiriblər. Bu xüsusda, Xarici İşlər Nazirliklərinin mətbuat katibləri arasında əlaqə yaradılmasının faydalı ola biləcəyi diqqətə çatdırılıb.

Telefon danışığı zamanı, nazirlər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıb və təmasların davam etdirilməsinin vacib olduğunu qeyd ediblər.

# İstanbul terroru

## Məqsəd Türkiyədə, toplum arasında qorxu yaratmaqdır




**Noyabrın 13-də Türkiyədə, İstanbulun mərkəzi sayılan İstiqlal prospektində terror hadisəsi törədilib. Dəhşətli partlayış nəticəsində 6 nəfər həyatını itirib, 81 nəfər isə yaralanıb. Hadisədən bir müddət sonra partlayışı törədən qadın saxlanılıb. Onun PKK terror təşkilatının üzvü olduğu məlum olub.**

(Səh.8)

## Ordumuzun səngərdən çıxmasına zərurət yaranacaq



Qarabağa nəzarəti tam bərpa etmək üçün ermənilər, ruslar başqa çıxış yolu qoymur

**"10 noyabr üçtərəfli bəyanatının ən çox müzakirə edilən və Ermənistan tərəfindən icra edilməyən iki əsas bəndi - erməni qoşunlarının Qarabağdan çıxarılması və Naxçıvana maneəsiz keçidin təmin edilməsidir".**

Bunu "Şərq"ə siyasi şərhçi Asif Nərimanlı deyib. Ekspert bildirib ki, razılaşmanın 6-cı bəndi - Laçın dəhlizinin marşrutunun dəyişdirilməsi bu ilin avqustunda həyata keçirildi. Lakin bu, İrəvan tərəfindən anlaşmanın icrası yox, Bakının məcbur etməsinin nəticəsi idi...

(səh.4)



## Xersonun azadlığı...

Zelenskinin "sülh" mesajları ciddi deyil

**Ukrayna Prezidenti Vladimir Zelenski Xersona səfər edib və burada şəhəri azad edən ukraynalı hərbçilərlə görüşüb.**

O, şəhərin baş meydanında administrasiya binası qarşısında növbəyə duran hərbçilərə "Biz irəliləyirik, biz bütün ölkəmiz üçün sülhə hazırıq" deyib.

(səh.5)



## Maaşlar da, təqaüdlər də artırılmalıdır

Çünki inflyasiya, qiymət artımı insanların belini büküb

(səh.9)



## Qorxulu Tehrana güzəşt yoxdur

Turab Rzayev: "Cənub qonşumuz səfirimizi ard-arda XİN-ə çağırmaqla Azərbaycan tərəfinə təzyiq etməyi planlaşdırır"

(səh.2)

## Çətin olsa da, mümkündür

Türkiyənin "Qoruyucu ailə sistemi"nin Azərbaycanda tətbiqi uğurlu olacaq



Azərbaycanda valideyn himayəsindən məhrum olmuş uşaqların ailə mühitində yaşamasını nəzərdə tutan yeni "Himayədar ailə" qayğı modelinin tətbiqi gündəmdədir.

(səh.9)

# Qorxulu Tehrana güzəşt yoxdur

## Turab Rzayev: "Cənub qonşumuz səfirimizi ard-arda XİN-ə çağırmaqla Azərbaycan tərəfinə təzyiq etməyi planlaşdırır"





### "Ancaq indiki dönəmdə bu mümkün deyil"

**Azərbaycan səfiri Əli Əlizadə İran Xarici İşlər Nazirliyinə (XİN) çağırılıb.**

**Ona "bir sıra Azərbaycan vətəndaşlarının ölkədə törətdiyi cinayət əməlləri ilə bağlı" etiraz notası təqdim edilib.**

Xatırladaq ki, noyabrın 10-da Azərbaycan Respublikasının Tehrandakı səfiri İran XİN-ə çağırılıb. Buna səbəb kimi guya ölkəmizin mətbuat orqanları və rəsmiləri tərəfindən İran İslam Respublikasına qarşı təbliğat və böhtanların davam etməsi göstərilib.

**Məsələni "Şərq"ə dəyərləndirən siyasi şərhçi Turab Rzayev bildirib ki, İran Azərbaycanın gərginliyi yüksəltməmək üçün daimi kompromisə getməsinə öyrəşib:** "Müharibə dövründə İranın Ermənistana minlərlə tır silah keçirdiyi, Azərbaycan Ordusunun əlaqəsinə zədə vurduğu, kəşfiyyat məlumatlarını Ermənistana ötürdüyü halda, biz hadisələrin eskalasiya olmasını istəmədiyimiz üçün onlara qarşı yumşaq davranırdıq. Yəni Qarabağda haqq davası apardığımız bir zamanda yeni münaqişə ocağı yaratmaqdan uzaq dayanırdıq. Rəsmi Tehrana güzəşt etdikcə isə onlar yenidən düşməncə davranmağa davam edirdi. İndi isə Azərbaycan cənub qonşumuzun təxribatlarına cavab verməkdədir.

Əvvəlcə şifahi xəbərdarlıq edildi, daha sonra nota verildi. İndiki zamanda mediada və cəmiyyətin arasında Cənubi Azərbaycanın səsi duyulur və İranın Azərbaycana qarşı etdiyi təxribatlar tənqid edilir. Son zamanlarda DTX İran agenturasına qarşı apardığı əməliyyatlar zamanı isə Azərbaycanda axtarışda olan şəxslərin Qum şəhərində gizlənərək silahlı dəstələr yaratmağa cəhd etdikləri məlum olub. Bütün bunları artıq ölkəmiz bir fakt kimi ortaya qoyur. Hətta daha əvvəl rəsmi Bakı da Tehrana nota ünvanlamışdı".

**Analitikin sözlərinə görə, İran tərəfi səfirimizi ard-arda XİN-ə çağırmaqla Azərbaycan tərəfinə təzyiq etməyi planlaşdırır:** "Ancaq indiki dönəmdə bu mümkün deyil. Düşünürəm ki, İran gərginliyin aradan qalxmasını istəyirsə, geri addım atmalı, Azərbaycana və onun dövlətçiliyinə qarşı düşmən mövqeyini dayandırmalıdır. Belə olacağı təqdirdə hansısa effekt görmək mümkün olacaq.

İranın səfirimizi bir neçə dəfə çağırması və nota verməsi isə rəsmi Bakı tərəfindən ciddi qəbul edilmir. Dövlətin və cəmiyyətinin mövqeyi onu göstərir ki, Azərbaycan tərəfi geri çəkilərək güzəştə getmək niyyətində deyil".

**Nihat Müzəffər**

# ABŞ Ermənistanda yerləşən Rusiya şirkətinə sanksiya tətbiq edib

**ABŞ Maliyyə Nazirliyi Rusiya ilə əlaqəli hüquqi və fiziki şəxslərə sanksiya tətbiq edib.**

APA xəbər verir ki, onlar Rusiyanın hərbi sənayesinə yardım etməkdə ittiham olunur.

Ümumilikdə, sanksiyalar 14 fiziki şəxs və 28 qurumu əhatə edir. Onların arasında Ermənistanda yerləşən şirkət də var.

"Milandr"ın Ermənistanda yerləşən filialı "Milur Electronics" MMC mikroçiplər istehsal etmək və xaricə satışlar həyata keçirmək məqsədi ilə yaradılmışdır.

Şirkət Rusiyanın elektronika istehsalı sektorunda çalışır. Eyni zamanda ABŞ Maliyyə Nazirliyi Ermənistanda yerləşən "Milur Electronics" MMC, İsveçrənin "Milur SA" və Tayvanın "Sharp Edge Engineering Inc" şirkətlərini qara siyahıya salıb. Hər üç şirkətin "Milandr" ilə əlaqəli olduğu vurğulanır.

"Birləşmiş Ştatlar Kremlin hərbi təchizat zəncirlərini ifşa etməyə və pozmağa davam edəcək. Rusiya Ukraynaya qarşı qeyri-qanuni müharibə aparmaq üçün lazım olan avadanlıq və texnologiyadan imtina etməlidir", - deyə Maliyyə Naziri Canet Yellen bildirib.

# Türkiyədə ABŞ-Rusiya danışıqlarının detalları açıqlanıb

## Ukrayna böhranının həlli müzakirə mövzusu olmayıb



**Türkiyənin Ankara şəhərində ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin rəhbəri Uilyam Börns və Rusiya Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkin arasında keçirilən görüşün detalları açıqlanıb.**

"Report" CNN-ə istinadən xəbər verir ki, bu barədə ABŞ Milli Təhlükəsizlik Şurasının nümayəndəsi açıqlama yayıb.

Görüşdə Rusiyada həbsdə olan ABŞ vətəndaşlarının işi, eləcə də Kremlin nüvə silahından istifadəsinin nəticələrini müzakirə edilib.

ABŞ nümayəndəsi nüvə silahından istifadənin nəticələri və strateji sabitliyin artması riskləri barədə bildirib.

*Qeyd edilir ki, danışıqlar zamanı Ukrayna böhranının həlli müzakirə mövzusu olmayıb.*



# Bayden Si Cinpinlə görüşdən məmnundur

## "ABŞ və Çin arasında yeni "soyuq müharibə" olmayacaq"

**ABŞ və Çin arasında yeni "soyuq müharibə" olmayacaq. APA BBC-yə istinadən xəbər verir ki, bu barədə ABŞ Prezidenti Co Bayden Çin Sədri Si Cinpinlə görüşündən sonra bildirib.**

"Mən tam inanıram ki, yeni "soyuq müharibə" olmayacaq. Si Cinpinlə bir neçə dəfə görüşmüşəm. Bütün bu görüşlərdə biz bir-birimizə qarşı səmimi və açıq idik. Mən Çin tərəfindən Tayvanın işğalına dair hər hansı bir cəhd olacağını düşünmürəm", - deyə Bayden bildirib.

ABŞ Prezidenti vurğulayıb ki, Si Cinpinə ölkəsinin Tayvan siyasətinin qətiyyən dəyişmədiyini açıq şəkildə bildirib.

Onun sözlərinə görə, Çin hücum edəcəyi təqdirdə ABŞ adanı qoruycaq.

Bayden əlavə edib ki, hər iki lider məsələlərin həlli üçün hökumətlərin ali səviyyələrdə dialoq mexanizminin yaradılması ilə bağlı razılaşıblar.

O, dövlət katibi Entoni Blinkenin də tezliklə Çinə yola düşəcəyini qeyd edib.

Bayden Çin lideri ilə görüşdə Sincan vilayətində uyğurlara qarşı münasibət, eləcə də Hon Konqda və Tibetdə insan haqları ilə bağlı narahatlığını da qarşı tərəfə çatdırıb.

# 10 il güzəşt

## Qarabağ sakinləri mənfəət, əmlak, torpaq və sadələşdirilmiş vergidən azad olunacaqlar

**"Vergi Məcəlləsi"nə təklif edilən dəyişikliklərlə işğaldan azad olunan ərazilərimiz üçün geniş vergi güzəştləri nəzərdə tutulur. Məcəlləyə bununla bağlı yeni fəslin əlavə edilməsi də təklif olunur". Bu barədə millət vəkili Vüqar Bayramov deyib. Deputat bildirib ki, məcəlləyə təklif edilən dəyişikliyə əsasən, işğaldan azad edilmiş ərazilərimizin sakinləri 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində mənfəət, əmlak, torpaq və sadələşdirilmiş vergidən azad olunacaqlar:**

"Yeni məskunlaşmadan sonra orada yaşayan və sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaşlarımız praktik olaraq mənfəət, əmlak, torpaq və sadələşdirilmiş vergiləri ödəməyəcəklər. İşğaldan azad edilmiş ərazilərimizin rezidentləri tərəfindən təsdiq olunmuş istehsal fəaliyyəti sahələri üzrə xammal və materialların idxalı növbəti yanvar ayından etibarən 10 il müddətində ƏDV-dən azad olunacaqlar. Eyni zamanda, işğaldan azad edilmiş ərazinin rezidenti olan hüquqi şəxslərin səhmdarlarının dividend gəlirləri də 10 il müddətində vergi ödəməyəcəklər. ƏDV-ni geri qaytarmaq üzrə də xüsusi güzəştlər nəzərdə tutulub. Belə ki, istehlakçılar tərəfindən işğaldan azad edilmiş ərazilər daxilində yerləşmə vasitələri hesab



edilən mehmanxanalar tərəfindən göstərilən gecələmə və qalma xidmətlərinə görə nağdsız qaydada ödənilən ƏDV-nin 30 faizi, nağd qaydada ödənilən ƏDV-nin 5 faizi geri qaytarılacaq. 2033-cü ilədək nəzərdə tutulan vergi güzəştləri kifayət qədər təqdirəlayiqdir və bu, işğaldan azad olunan ərazilərimizdə sərmayə cəlbini, fərdi sahibkarlığı və eləcə də əhalinin sosial təminatının daha da gücləndirilməsinə xidmət edəcək".

**İsmayıl**

# İranın bütün casusları gec-tez ələ keçəcək

## DTX-nin ifşa əməliyyatı hələ indi başlayır

**İranın Azərbaycandakı növbəti casus şəbəkəsi ifşa edilib və 5 nəfər həbs olunub. Dövlət Təhlükəsizliyi Xidmətinin məlumatına əsasən, həyata keçirilmiş tədbirlər nəticəsində müəyyən edilib ki, Xəzər Dəniz Neft Donanmasında gəmi kapitanı vəzifəsində işləyən Zahir Əsgərov İranın Qum şəhərində dini təhsil aldığı müddətdə maddi maraq müqabilində adıçəkilən ölkənin xüsusi xidmət orqanı nümayəndələri tərəfindən məxfi əməkdaşlığa cəlb olunub.**

O, ötən dövr ərzində onların tapşırığı ilə Azərbaycanın suverenliyi və müdafiə qabiliyyətinin zərərinə istifadə etmək üçün xarici dövlətlərin ölkəmizdə fəaliyyət göstərən şirkət və nümayəndəlikləri, Xəzər dənizində Hərbi Dəniz Qüvvələrinin keçirdiyi təlimlərin yeri və vaxtı, neft platformalarına daşınan yüklər barədə məlumatlar toplayıb. Z.Əsgərov sözügedən məlumatları mobil telefon vasitəsilə, eləcə də İranda həmin şəxslərlə görüşlər zamanı bilavasitə təqdim etməklə casusluq formasında dövlətə xəyanət edib. Başqa bir araşdırma ilə müəyyən edilib ki, Elnur Rəsulov 2018-ci ildə müalicə məqsədilə İranda olarkən orada özünü "Meyse" və "Doktor" adları altında təqdim edən bu ölkənin xüsusi xidmət orqanı nümayəndələri ilə məxfi əməkdaşlıq barədə sövdələşib. E.Rəsulov qohumu Arif Rəsulov ilə birlikdə müxtəlif məbləğlərdə ödəniş qarşılığında verilən tapşırıqları icra edib. O, neft və qaz boru kəmərlərinin keçdiyi ərazilərin, pilotsuz uçuş aparatlarının, tankların və müxtəlif hərbi avadanlıqların olduğu ərazinin, Salyan və Füzuli rayonlarında yerləşən strateji və hərbi obyektlərin, fotoşəkillərini və videoçəkilişlərini "WhatsApp" vasitəsilə xüsusi xidmət orqanının nümayəndəsinə göndərib. Digər bir casus - Bəxtiyar Ağazadə İran xüsusi xidmət orqanının tapşırığı ilə xarici dövlətlərin Azərbaycanda fəaliyyət göstərən nümayəndəlikləri, ölkədə baş verən ictimai-siyasi proseslər, hərbi hissələr barədə əldə etdiyi məlumatları toplayıb. Araşdırmalar zamanı İran xüsusi xidmət orqanının tapşırığı əsasında fəaliyyət göstərən və hazırda İranda gizlənmiş Tohid İbrahimbəyli, Orxan Məmmədov, Elşad Hacıyev tərəfindən yaradılmış votsap qrupları da ifşa edilib.



"Üç-beş manat üçün Vətənə, dövlətə, millətə xəyanət niyyətinə düşənlər bunu qulaqlarında sırğa etsinlər"

DTX-nın ifşa etdiyi İran casusları ilə bağlı video-görüntülərdə diqqətçəkən məqamlardan biri şəbəkənin "B" planını tətbiq etməsinə dair detaldır. Qapalı votsap qruplarında aparılan söhbətlər zamanı şəbəkə üzvlərindən biri bildirib ki, "əsas hədəf əvvəl məxfilik yox, siyasi hakimiyyət idi, amma zaman iqtisa etdi ki, "B" planına keçək, bu, məxfilik siyasətidir". İran şəbəkəsinin məxfilik siyasətinə tədricən keçidi 2015-ci il Nardaran hadisələrindən sonra müşahidə edilir. Məlum qruplaşma Gəncə hadisələrindən sonra "yer altına" çəkilib. İndi kiçik bir hissəsi ifşa olunsa da, böyük hissəsi hələ də "yer altında" gizlənməkdədir.

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə deyib ki, hazırda Azərbaycana qarşı ən çox təxribatla məşğul olan, hətta bu sahədə Ermənistanı belə geridə qoyan ölkə İrandır.** Professor vurğulayıb ki, İranın Azərbaycana qarşı mövqeyi, qərəzli və qısqanc münasibəti hamımıza bəllidir. Müharibədən öncə də Tehran rejiminin ikiüzlü siyasəti, işğalçı ermənilərlə dostluğu açıq-aşkar idi. Zəfərdən sonra İran Azərbaycana qarşı daha genişmiqyaslı hücuma keçdi. Əslində, ölkəmizdə casus şəbəkəsinin və iranpərəstlərin varlığı da bilinirdi. DTX-nın casus şəbəkəsini üzə çıxarması və verilən rəsmi məlumatlar göstərir ki, təhlükəsizliyimizin keşiyində duranlar bütün çirkli oyunları, təxribatları zamanında faş edirlər. Heç kim və heç nə diqqətdən kənarda qalmır, bütün casuslar gec-tez ələ keçəcək və ən sərt formada cəzalandırılacaqlar. Agentlik həvəsində olanlar, üç-beş manat üçün Vətənə, dövlətə, millətə xəyanət niyyətinə düşənlər bunu qulaqlarında sırğa etsinlər. İranın Azərbaycanda güclü şəbəkəsi var və bunu etiraf etmək lazımdır. Cənub bölgəsində, Gəncəbasar və Bakıda İrana işləyən şəbəkə aktiv fəaliyyət göstərir. Son zamanlar Naxçıvana yönəlik də təxribatlara başlayıblar.

İranın əsas məqsədlərindən biri Ermənistan və işğal olunmuş ərazilərimiz üzərindən narkoticarəti əlində saxlamaqdır. Çünki narkotik maddələrin ticarətindən İran milyard dollarlar əldə edirdi. İran Azərbaycan daxilində fitnə-fəsad, qarışıqlıq törətmək üçün hər yola baş vurur. Şübhə yox ki, fars rejimi öz çirkin planlarını həyata keçirmək üçün ölkəmizdəki bəzi siyasi partiyalardan, deputatlardan, qeyri-hökumət təşkilatlarından da istifadə etməyə çalışacaq. İranın xaricdəki anti-Azərbaycan qüvvələrlə, ölkəmizə qarşı qarayaxma kampaniyasında iştirak edən bloqerlərlə də əlbir olduğu ehtimal olunur".

*C.Nuriyev vurğulayıb ki, İranın üzərinə daha güclü və genişmiqyaslı getmək lazımdır:* "Hələ də Tehran rejimini müdafiə edənlər, yaxud həqiqətlərə susanlar var. Sadəcə bir neçə qəzet, sayt və televiziya ilə mübarizə effektli deyil. Cəmiyyət halında İranın həyata keçirdiyi siyasətə, planladığı təxribatlara qarşı mübarizə aparmalıyıq. Bu qədər deputatımız var, hansının İranda biznesi yoxdursa, heç olmasa onlar danışsın, susmasınlar. Axı nəyi gözləyirlər?! Dövlət başçısı öz mövqeyini qəti və aydın şəkildə ortaya qoyub. Əfsuslar olsun ki, ziyalılar, ictimaiyyət nümayəndələri İranla bağlı məsələdə yaxaları kənara çəkirlər. İran dini təhsil ocaqlarının yetişdirdiyi "bozbaş mollalar"dan canımızı qurtarmalıyıq. Yas məclislərimizdə İran ləhcəsiylə danışanlara, açıq-aşkar fars-molla rejimini təbliğ edənlərə qətiyyən imkan verilməməlidir, onlar boykot olunmalıdır. İrandakı fars-molla rejimi ilə bağlı həqiqətləri cəmiyyətə düzgün çatdırmalıyıq. İrandakı rejimin sonudur, nə qədər çox çırpınsa, bir o qədər batacaq. İran viran olacaq və sonra Turan doğulacaq".

**İsmayıl Qocayev**

---

# Sərhədlərimizdə real təhlükələr mövcuddur

## General Zakir Həsənovun Gürcüstan səfəri əhəmiyyətli hadisədir

"Risklər Azərbaycanı sərhədlərindəki digər ölkələrlə təhlükəsizlik məsələlərinin yaxşı təşkil edilməsinə məcbur edir"

**Gürcüstanda rəsmi səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov noyabrın 14-də bu ölkənin Müdafiə naziri cənab Cuanşer Burçuladze ilə görüşüb.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, Gürcüstan Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi təşkil edilib. Protokola uyğun olaraq müdafiə nazirləri fəxri qarovulun önündən keçib, hərbi orkestrin müşayiəti ilə hər iki ölkənin dövlət himnləri səsləndirilib.

Tərəflər regional təhlükəsizlik, hərbi əməkdaşlığın inkişaf perspektivləri, birgə hərbi təlimlərin keçirilməsi və işçi görüşlərin təşkili barədə ətraflı fikir mübadiləsi aparıblar.

Görüşdə həmçinin hərbi, hərbi texniki, hərbi təhsil, hərbi tibb sahələrində əməkdaşlığın daha da genişləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

Yekunda hər iki ölkənin müdafiə nazirlikləri arasında 2023-cü il üçün ikitərəfli hərbi əməkdaşlıq planı imzalanıb.



**Siyasi şərhçi Həşim Səhrablı Azərbaycan və Gürcüstan arasında ikitərəfli hərbi əməkdaşlıq planından "Şərq"ə danışarkən bildirib ki, Azərbaycan hazırda yerləşdiyi coğrafi məkan və içərisində olduğu geopolitik vəziyyət baxımından çətin durumdadır.**

**Onun sözlərinə görə, indiki zamanda ölkəmizin sərhədlərində həm siyasi, həm də hərbi anlamda qeyri-sabitlik hökm sürür və real təhlükələr mövcuddur:** "Ermənistandan fərqli olaraq, İran hərbi potensial, texniki inkişafı baxımından daha böyük və ciddi rəqibdir. Risklər Azərbaycanı sərhədlərindəki digər ölkələrlə təhlükəsizlik məsələlərinin yaxşı təşkil edilməsinə məcbur edir. Bura Rusiya və Gürcüstan daxildir. Ermənistanla onsuz da müharibə vəziyyətindəyik. Dəniz vasitəsilə türk dövlətlərindən real bir təhlükə hazırkı şəraitdə görünmür.

Türkiyə ilə isə müttəfiq əlaqələrimiz mövcuddur. İndiki məqamda Rusiya ilə beynəlxalq vəziyyətimizi nəzərə alaraq, demək olar ki, hər hansı qarşıdurma yaxın zamanda gözlənilmir. Burada həm Rusiya və Türkiyə münasibətləri, eyni zamanda rəsmi Moskva və rəsmi Bakı əlaqələri faktoru var. Bildiyimiz kimi, şimal qonşumuz beynəlxalq arenada təklənir. Eyni zamanda Ukraynada çox çətin vəziyyətə düşüb. Ukrayna müharibəsinin Rusiyanın məğlubiyyəti ilə bitməsi mövcud riskləri müəyyən qədər sığortalayır. Çünki rəsmi Moskva özü də Türkiyə və Azərbaycan ilə münasibətləri isti saxlamalı olduğunu anlayır.

Bu o demək deyil ki, öz maraqları fonunda iki qardaş ölkəyə güzəştə gedəcək. Həmçinin hazırda anti-Azərbaycan və anti-Türkiyə əleyhinə Rusiyada hər hansı addımlar da atılmayacaq. Geriyə Gürcüstan qalır. Azərbaycan da əmin olmağa çalışır ki, Ermənistan və ya İrandan hər hansı təcavüz, hərbi qarşıdurma olarsa, Gürcüstan tərəfdən heç bir təhlükəyə məruz qalmayacaq. Z.Həsənovun da Gürcüstanda keçirdiyi görüşlər bu istiqamətlərdədir. Ölkələr həm siyasi, həm hərbi, həm də iqtisadi arenada daha mütəşəkkil bir hala gəlmək, inkişaf etmək üçün qarşılıqlı əlaqələr qurmağa məcburdur. Səfər Gürcüstan və Azərbaycan tərəfindən müsbət nəticələrlə yadda qalacaq. Çünki Gürcüstanın özünün də beynəlxalq vəziyyəti çox yaxşı sayılmaz. O özü də təcavüzə, separatizmə, Rusiyanın işğalına məruz qalan bir ölkə kimi indi özünün təhlükəsizliyini daha çox düşünür".

**Sücayət Mehti**

# Makronun fəallığı mənasız cəhddir

## Cənubi Qafqaz teatrında Fransaya yer yoxdur

İsmayıl Qocayev

**Noyabrın 12-də Fransa Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Makron noyabrın 19-da keçiriləcək Frankofoniya təşkilatının 18-ci Zirvə Görüşü çərçivəsində Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşəcəyi barədə məlumat verib.**

Həmçinin, Fransanın Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesinə töhfə vermək niyyətini bir daha ifadə edib. Telefon danışığı zamanı dövlət başçıları Azərbaycan, Ermənistan, Avropa İttifaqı və Fransanın iştirakı ilə dördtərəfli formatda keçirilmiş Praqa görüşünün nəticələri və bundan irəli gələn məsələlər barədə fikir mübadiləsi aparıblar. Prezident İlham Əliyev Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesində bitərəf, qərəzsiz və tarazlaşdırılmış yanaşmanın nümayiş etdirilməsinin vacibliyini qeyd edib. Dövlətimizin başçısı Ermənistan tərəfindən son günlərdə səsləndirilən bəyanatların iki ölkə arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi ilə ziddiyyət təşkil etdiyini diqqətə çatdırıb.



“Nə Azərbaycan, nə Türkiyə, nə ABŞ, nə də Britaniya bu rəqabət meydanında Fransaya yer vermək marağındadır”

**Siyasi şərhçi Aqşin Kərimov ”Şərq”ə bildirib ki, Fransa Cənubi Qafqaz siyasətinin nüanslarını davam etdirmək üçün müvafiq çərçivələr tapmaq axtarışlarındadır. Analitikə görə, Paris Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi ilə bağlı təşəbbüslərini ”sabitliyin qorunub-saxlanılması” ifadələri ilə epitetləsə də, onun mövqeyi Bakının siyasəti ilə uyuşmur:** ”Elə bu uyğunsuzluq, sülh və təhlükəsizlik modelinə dair bir-birilə ziddiyyət təşkil edən mövqelər Fransa Prezidenti Emmanuel Makronu Azərbaycan Prezidenti İlham Əliyevə zəng etməyə vadar edib. Makronun dövlət başçısı İlham Əliyevlə telefon diplomatiyası Fransanın dünya üzrə sönməkdə olan qlobal maraqlarını Cənubi Qafqazla bərpa etmək üçün bir yol kimi qiymətləndirilə bilər. Ermənistana qucaq açaraq vasitəçilik təşəbbüsünü şübhə altına alan Fransa Azərbaycanın ərazi suverenliyinə təhdid yaratmaq xəttinə getməklə həyata keçirmədiyi və ya nəzarət edə bilmədiyi prosesdə təsir vasitəsinə çevrilmək niyyətindədir. Ona görə də Fransa Azərbaycanın siyasəti ilə barışıb reallıqları qəbul etməyin ən optimal seçim olduğunu dərk edir. Ancaq Paris İrəvana bir neçə səbəbə görə revanşist nəfəs verir. Birinci məqam odur ki, Fransa qavrayır ki, Ermənistan onun maraqlarını tərəfdaşlıqla deyil, mütilikə təmin edəcək və regionda Türkiyənin möhkəmlənməsinə maneələrin yaradılmasında rol oynayacaq. İkinci nüansa gəldikdə isə Fransa Cənubi Qafqazı alternativ qismində görür və o, bu regionda Rusiya vasitəsilə dirçəlib meydan oxumağa çalışır. Paris Azərbaycan-İran münasibətlərindəki gərginlik fazasını Bakıya qarşı cəbhə platforması kimi diqqətdə saxlayır. Fransa qeyd etdiyimiz istiqamətlər üzrə arzularını Avropa İttifaqının çərçivəsindən kənarda, qlobal geosiyasi əhəmiyyətini təsdiqləmək üçün həyata keçirməyi hədəfləyir”.

**A.Kərimov qeyd edib ki, Paris Ermənistanı dəstəkləməklə Fransadakı erməni lobbisi və erməni icmasının könlünü xoş tutmaq istəyir ki, bu da sırf daxili-siyasi məsələlərin perspektivi üçün nəzərdə tutulur:** ”Fransanın Cənubi Qafqazda potensial alternativ kimi genişlənmək sevdası reallaşmayacaq, çünki Qərbin iki gücü - ABŞ və Böyük Britaniya da dünya üzrə Fransanın ekspansiyasını zəiflədən proses başladıblar. Rusiya-Ukrayna müharibəsi, Azərbaycan-İran hibrid savaşı Cənubi Qafqazın böyük siyasi təlatümlə üzləşməsi riskini və geosiyasi tamahları artırır. Amma nə Azərbaycan, nə Türkiyə, nə ABŞ, nə də Britaniya bu rəqabət meydanında Fransaya yer vermək marağındadır. Rusiyaya gəlincə, o, Cənubi Qafqaz teatrında Fransanı yalnız formal tərəfdaş kimi görə bilər və Moskva özü də NATO-nun bir üzvü olan Fransanın regionda ”at oynatmasına” şərait yaratmayacaq”.

# ABŞ-ın Mərkəzi Asiya ölkələrinə marağı artıb

## Vaşinqton çətin vəziyyətdə olan ölkələrə hətta kömək də vəd edir

**Amerika Birləşmiş Ştatlarının Mərkəzi Asiya ölkələrinə marağı artıb. Dövlət katibinin köməkçisi Donald Lunun noyabrın 11-də Türkmənistana, Özbəkistana və Qazaxıstana səfəri bu maraqdan irəli gəlir. Donald Lu deyib ki, Rusiyaya qarşı sanksiyaların Türkmənistana təsir etməməsi üçün Vaşinqton Aşqabada kömək edəcək.**

*“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, Vaşinqtonun kömək vədinin yerinə yetirilməsi Mərkəzi Asiya ölkələri üçün əhəmiyyətlidir. Analitik düşünür ki, Qərbin Ukrayna müharibəsinə görə Rusiyaya qarşı sərt sanksiyalarının Mərkəzi Asiya ölkələrinə də mənfi təsirləri var:* ”Qazaxıstan bu təsirləri minimuma endirməyə çalışır. Məsələn, Rusiyanın Qazaxıstandakı ”Sberbank” və ”Alfabank”ı yerli sahibkarlara satıldı. Vaşinqton bu sövdələşməni təqdir edib. Vaşinqton hesab edir ki, Türkmənistan zərərlə üzləşməyəcək. Önəmli olan Türkmənistanın




Rusiya ilə bank əməliyyatlarını minimuma endirməkdir. ABŞ Türkmənistana Rusiyadan bank asılılığını azaltmaq 7 milyon dollar ayırıb.

Donald Lu mətbuat konfransında deyib ki, Vaşinqtonun məqsədi Mərkəzi Asiya ölkələrini Rusiya ilə münasibətlərdən tamamən qoparmaq deyil: ”Rusiyanın bölgə ölkələri ilə ənənəvi əlaqələri mövcuddur. Buna baxmayaraq, bölgə ölkələri Rusiyadan asılı olmamalıdırlar”.

**E.Şahinoğlu vurğulayıb ki, Donald Lunun Mərkəzi Asiya ölkələrinə səfəri zamanı verdiyi açıqlamalar Moskva ilə yanaşı Pekini də narahat edir:** ”Rusiya ilə yanaşı Mərkəzi Asiya ölkələrinə ən çox yatırım qoyan ölkə Çindir. Pekin Mərkəzi Asiya ölkələri ilə əlaqələri xarici siyasətinin əsas istiqamətlərindən biri sayır. Pekin şübhələnir ki, Vaşinqton Mərkəzi Asiya ölkələrinin Çindən asılılığını azaltmaq istəyir. Cənab Lu, Vaşinqtonun imkanı xaricindədir. Çünki Çinin Mərkəzi Asiya ölkələrindən milyardlarla dollar yatırımı ilə yanaşı icra etdiyi ortaq layihələri də var. Mərkəzi Asiya ölkələri bu layihələrdən imtina etməyəcəklər. Ancaq Mərkəzi Asiya ölkələrinin iqtisadi zəmində Çindən artan asılılığı Rusiyadan olan asılılıqdan daha təhlükəlidir”.

**İsmayıl**



# Ordumuzun səngərdən çıxmasına zərurət yaranacaq

## Qarabağa nəzarəti tam bərpa etmək üçün ermənilər, ruslar başqa çıxış yolu qoymur

**”10 noyabr üçtərəfli bəyanatının ən çox müzakirə edilən və Ermənistan tərəfindən icra edilməyən iki əsas bəndi - erməni qoşunlarının Qarabağdan çıxarılması və Naxçıvana maneəsiz keçidin təmin edilməsidir”.**

*Bunu ”Şərq”ə siyasi şərhçi Asif Nərimanlı deyib. Ekspert bildirib ki, razılaşmanın 6-cı bəndi - Laçın dəhlizinin marşrutunun dəyişdirilməsi bu ilin avqustunda həyata keçirildi. Lakin bu, İrəvan tərəfindən anlaşmanın icrası yox, Bakının məcbur etməsinin nəticəsi idi:* ”Azərbaycan ”Qisas” əməliyyatı ilə dəhlizin marşrutunun dəyişdirilməsinə nail oldu və Laçın şəhərinin mərkəzinə də nəzarət bərpa edildi. Proseslər növbəti əməliyyatlara da zərurətin yarana biləcəyi yönündə inkişaf edir. Xüsusilə erməni qoşunların Azərbaycan torpaqlarından tam çıxarılması üçün məcburetmə əməliyyatı yeganə seçim olaraq görünür. Üçtərəfli razılaşmanın imzalanmasından ötən iki il ərzində Bakı Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərlə bağlı üç istiqamətdə irəliləyiş əldə edib. Fərrux və Qisas əməliyyatı ilə Xankəndi ətrafında halqa daralıb. Əsas strateji nöqtələrin Azərbaycan Ordusunun nəzarətində olması həm psixoloji üstünlük, həm də mümkün əməliyyatlar üçün önəmlidir. Laçın dəhlizinin marşrutunun dəyişməsindən sonra ermənilərin yaşadığı ərazilərə gedən qaz, elektrik enerjisi və digər nəqliyyat xətlərinə nəzarət güclənib”.

**A.Nərimanlı vurğulayıb ki, ötən qış baş verən qəza nəticəsində Xankəndinin qaz təchizatının kəsilməsinin yaratdığı nəticələr də bunu təsdiq etdi:** ”Həm Qərb, həm Rusiya masasından Qarabağ mövzusu çıxarılıb, ”Qarabağ münaqişəsi”nin bitdiyi, ermənilərin Azərbaycan vətəndaşı olaraq bölgədə yaşaya biləcəyi mövqeyi güclənib. Proseslərin mürəkkəbliyi və geosiyasi oyunçuların bölgədə məhz Qarabağ üzərindən hərəkət etməsi fonunda diqqətçəkən nəticələrdir. Proseslərdən çıxan bir nəticə də var: - Qarabağa nəzarəti tam bərpa etmək üçün ordunun kazarmalardan çıxması zərurəti yaranacaq, nə ermənilər, nə ruslar başqa çıxış yolu qoymur”.

**İsmayıl**

# Mirzoyanla Xovayev görüşüb

## Azərbaycan - Ermənistan sərhədinin delimitasiyasını müzakirə ediblər



**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan və Rusiya xarici işlər nazirinin xüsusi nümayəndəsi İqor Xovayev bazar ertəsi İrəvandakı görüşdə Ermənistan və Azərbaycan sərhədlərinin delimitasiyası prosesini müzakirə ediblər.**

Bu barədə Ermənistan Xarici İşlər Nazirliyinin məlumatında deyilir.

”Görüş zamanı Ermənistan və Azərbaycan arasında münasibətlərin nizamlanması müzakirə olunub. Həmsöhbətlər oktyabrın 31-də Ermənistan, Rusiya və Azərbaycan liderlərinin son üçtərəfli görüşünə toxunublar. Ararat Mirzoyan və İqor Xovayev həmçinin Ermənistan və Azərbaycan arasında sərhədlərin delimitasiyası prosesi, eləcə də regionda nəqliyyat infrastrukturlarının blokdan çıxarılması ilə bağlı fikir mübadiləsi aparıblar”, - məlumatda bildirilir. (TASS)

# Xersonun azadlığı...

## Zelenskinin “sülh” mesajları ciddi deyil



“Ukrayna liderinin irəli sürdüyü şərtlər elədir ki, bu, danışıqlara başlamaqdan çox, onu pozmağa hesablanıb”

**Ukrayna Prezidenti Vladimir Zelenski Xersona səfər edib və burada şəhəri azad edən ukraynalı hərbçilərlə görüşüb. O, şəhərin baş meydanında administrasiya binası qarşısında növbəyə duran hərbçilərə ”Biz irəliləyirik, biz bütün ölkəmiz üçün sülhə hazırıq” deyib.**

Zelenski həmçinin NATO və digər müttəfiqlərinə Rusiyaya qarşı müharibədə göstərdikləri dəstəyə görə təşəkkür edib və ABŞ-dan yüksək mobillikli raket artilleriya sistemlərinin (HIMARS) tədarükünün Kiyev üçün böyük əhəmiyyət kəsb etdiyini bildirib. Xatırladaq ki, Avropa İttifaqının (Aİ) xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Jozep Borel bildirib ki, Rusiya ilə danışıqlara nə vaxt başlayacağına rəsmi Kiyev özü qərar verməlidir. O söyləyib ki, Ukrayna nə edəcəyini özü müəyyənləşdirməlidir: ”Bizim vəzifəmiz onları dəstəkləməkdir”.

**Politoloq Azər Qasımov ”Şərq”ə bildirib ki, Rusiyanın Ukraynanı işğal cəhdinin qarşısını alan Zelenskinin və Ukrayna xalqının qəhrəmanlığı oldu. Analitikə görə, müharibənin hər mərhələsində sülh mesajlarının verilməsinin şahidi oluruq:** ”Bu, müharibənin gedişatı baxımından tərəflər arasında növbəli şəkildə dəyişir. Zelenski Putinin hakimiyyətdə olduğu müddət ərzində Rusiya ilə danışıqları qadağan edən qərar belə imzalayıb ki, bu da təbiidir. Putinlə danışıqların aparılması mümkün deyil. Buna baxmayaraq Zelenskinin ”sülh” mesajlarının ciddi olmadığı qənaətindəyəm. ”Sülh” danışıqları üçün Zelenskinin irəli sürdüyü şərtlər elədir ki, bu, danışıqlara başlamaqdan çox, onu pozmağa hesablanıb. Zelenski Rusiyadan işğalçı ordunu çıxarmağı, Krımı geri qaytarmağı, işğal zamanı vurulmuş ziyana görə təzminat ödəməyi və müharibə cinayətləri törətmiş rəhbərlik də daxil, bütün hərbi və mülki şəxslərin cəzalandırılmasını tələb edir. Bunun mümkünlüyü az inandırıcıdır. Putin buna getməz, çünki bu, onun sonu olar”.

**Ekspert deyib ki, Putin Ukrayna ilə qarşıdurmanın ilk vaxtlarından Zelenskini özünə rəqib görmürdü. Hər zaman onun arxasındakı ABŞ-la masaya əyləşmək təklifi ilə çıxış edirdi. Görünən odur ki, Putin məğlubiyyətə baxmadan yenə də öz fikrində qalıb:** ”Qərb bir çoxlarının proqnoz etdiyi ”Qərb Ukraynanı yarı yolda qoyacaq, Rusiya ilə gizli danışıqlar aparıb, Ukraynanı satacaq” kimi fikirlərin əksinə olaraq danışıq məsələsinin Ukraynanın qərarından asılı olacağını qeyd edir. ABŞ yaxşı başa düşür ki, silahı onlar versələr də, döyüşən Ukrayna xalqıdır və tam qələbə çalmaq ehtimalı olduğu halda bunu yarımçıq saxlamağa heç bir tərəf razı olmaz. Amerika eyni zamanda, öz imicindən də narahatdır. Yaxşı dərk edir ki, Rusiyanı tam məğlub edənə kimi Ukraynanın arxasında dayanacağına söz verdiyi halda yarımçıq geri çəkilmək, imicinə böyük zərbə olacaq. Ona görə bu işi Ukraynanın öz öhdəsinə buraxır. Onsuz da ABŞ bu müharibədən istədiyini alıb. Rusiyanın və Putinin ”dünyanın II ordusunun” heç nə olduğunu, tək gücün ABŞ olduğunu isbat edib. Vaşinqtonun əsas çəkinəcəyi məsələ tam məğlubiyyətin Rusiyada iğtişaşlara gətirməsi sonrasında ətraf ölkələrə insan axını və nüvə silahının başqa əllərə keçməsi qorxusudur. Amma görünən odur ki, ABŞ bunu gözə almağa hazırlaşır”.

**İsmayıl Qocayev**

# Xarici vətəndaşlığı olan Rusiya vətəndaşları da hərbi xidmətə çağırılacaq



**Xarici vətəndaşlığı olan Rusiya vətəndaşları da Rusiya Silahlı Qüvvələrində hərbi xidmət keçəcək.**

APA-nın Moskva müxbirinin məlumatına görə, bu gün Rusiya Prezidenti Vladimir Putin Rusiya Federasiyasının Silahlı Qüvvələrində əcnəbi vətəndaşların xidmət keçməsi qaydası haqqında fərman imzalayıb. Müvafiq fərman hüquq-informasiya internet portalında dərc olunub.

Fərman dinc dövrdə xarici dövlətin vətəndaşlığına və ya yaşayış icazəsinə və ya vətəndaşın xarici dövlətin ərazisində daimi yaşamaq hüququnu təsdiq edən digər sənədə malik olan Rusiya vətəndaşlarının hərbi xidmət keçmə qaydasını müəyyən edir.

Yeni qaydaya əsasən, xarici vətəndaşlığı olan Rusiya vətəndaşları da Rusiya Silahlı Qüvvələrində hərbi xidmətə çağırılacaq.

*Qeyd edək ki, indiyədək ancaq Rusiya vətəndaşı olan şəxslər hərbi xidmətə çağırılırdı.*

# Mətbuat katibi işdən çıxıb

## Bu barədə Elnur Kələntərov özü məlumat yayıb



**Dövlət Miqrasiya Xidmətinin (DMX) İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi Elnur Kələntərov işdən çıxıb. Bu barədə o, özü məlumat yayıb.**

O, bundan sonra fəaliyyətini ”For Azerbaijan” Beynəlxalq Təşkilatın Azərbaycan nümayəndəliyinin rəhbəri qismində davam etdirəcəyini bildirib.

*Qeyd edək ki, E.Kələntərov 2020-ci ilin yanvar ayında qurumun İctimaiyyətlə əlaqələr idarəsinə rəis təyin olunub. O, daha əvvəl həmin idarənin rəis müavini vəzifəsində çalışıb. E.Kələntərova ötən il polkovnik rütbəsi verilib.*

# Bakı Qərb versiyasında israrlıdır

## Paşinyan isə hər vəchlə sülh prosesini pozmağa çalışır

“Belə olan təqdirdə Ermənistanla sülh müqaviləsinin prosesində irəliləyiş gözlənilmir”

**“Paşinyan məsuliyyəti Rusiyanın üzərinə qoyur, lakin qərar qəbul edən tərəf münaqişənin digər tərəfidir”. Bunu ”Kommersant”ın müxbiri Kiril Krivoşeyev deyib. Onun sözlərinə görə, Rusiya hər şeyi deyə bilər, lakin sülhməramlıların mandatı onun istəyi ilə uzadılmayacaq. Krivoşeyev qeyd edib ki, Bakı Qərb versiyasında israrlıdır, Moskva heç nəyə qarşı çıxa bilməz:**

”Əgər biz sülh sazişini imzalaya bilməsək, müharibə qaçılmaz olacaq”. ”Kommersant”ın müxbiri əlavə edib ki, Bakı ilə razılaşmaq lazımdır, Moskva, Fransa və İran kömək etməyəcək: ”Ermənistana qarşı təkcə xarici deyil, həm də daxili çağırışlar var və bu daxili çağırışlar arasında hədəfi cəmiyyətimiz olan yalan məlumatların yayılmasını xüsusilə vurğulayıram”. Ermənistanın ”Hraparak” qəzeti də yazıb ki, Avropa İttifaqının müşahidəçiləri iki həftədir Ermənistandadırlar, lakin onların sərhəd komissiyalarına etimad yaratmaq və dəstəkləmək üçün nə etdikləri məlum deyil. Nəşrin məlumatına görə, Ermənistan Təhlükəsizlik Şurasının heç nə deməyən ”press-reliz”lərindən proses haqqında mühakimə yürütmək olar: ”Müşahidəçilər gəlirlər, gedirlər, mövqelərini tuturlar, şəkil çəkirlər. Aİ missiyasının üzvləri hər gün gəlmirlər. Əvvəlcə müntəzəm gəlirdilər, indi daha az-az gəlirlər. Mövqe tuturlar, müşahidə aparırlar. Amerika prezidenti heç nəyi dəyişmir, bunların gəlməyi nəyi dəyişmədir?”. Erməni türkşünas, tarix elmləri doktoru Ruben Melkonyan isə deyib ki, iqtidar toplumu ”sülh” nağılları ilə aldadır: ”Ermənistana qarşı təkcə xarici deyil, həm də daxili çağırışlar var və bu daxili çağırışlar arasında hədəfi cəmiyyətimiz olan yalan məlumatların yayılmasını xüsusilə vurğulayıram. Bunun çox böyük təhlükəsi var, bu tezislər cəmiyyətin bir hissəsini, xüsusən İrəvandan kənarda olan cəmiyyəti çaşdırır. Yalan sülhsevər tezislər yaymaqla xalqı niyə aldadırsınız və onu rəqibin qarşısında tək qoyursunuz?”.



**Politoloq Məhəmməd Əsədullazadə də ”Şərq”ə açıqlamasında deyib ki, Ermənistan qəsdən və məqsədli şəkildə Azərbaycanla sülh müqaviləsinin bağlanmasından yayınır.** Onun sözlərinə görə, Ermənistan Baş naziri Nikol Paşinyan son müsahibəsində xarici işlər nazirlərinin Vaşinqtonda keçirilən görüşündə öz təkliflərini verdiklərini qeyd edib: ”Azərbaycanın təqdim etdiyi və ABŞ tərəfindən qəbul edilmiş sülh müqaviləsinin təkliflərinə Paşinyan növbəti dəfə ”status” məsələsini daxil edib. Göründüyü kimi, Fransa və Rusiyanın təhriki ilə Paşinyan Vaşinqton gündəliyini pozmaq kursunu davam etdirir. Hazırda Ermənistan baş nazirinin əsas siyasəti Azərbaycana qarşı beynəlxalq təzyiqlərə nail olmaq və Qarabağda yaşayan ermənilərlə bağlı ”status” məsələsini gündəmdə saxlamaqdır. Bununla Azərbaycanın geri çəkiləcəyini düşünür. Erməni baş naziri danışıqlar prosesini apармaqla, beynəlxalq şəraitin onların lehinə dəyişməsi üçün gözləmə mövqeyinə keçib. İndiki məqamda Ermənistan danışıqlarda maraqlı deyil. Ermənistan rəhbərliyi Qarabağda silahlı erməni birləşmələrinin ləğvinə qarşı şərt irəli sürür. Həmçinin, 10 noyabr bəyannaməsinin bəndlərini fərqli şəkildə izah edir. Paşinyana görə, Qarabağ ətrafında demilitarizasiya xətti yaradılandan sonra silahlı erməni birləşmələri çıxarıla bilər. Göründüyü kimi, bütün vasitələrlə imza atdığı bəyannamənin bəndlərini yerinə yetirməkdən boyun qaçırır. Belə olan təqdirdə Ermənistanla sülh müqaviləsinin prosesində irəliləyiş gözlənilmir”.

**Ekspertin fikrincə, qanunsuz erməni silahlılarının Azərbaycan mövqelərinə atəş açması da bundan xəbər verir:** ”Bu prosesə Rusiya ”sülhməramlı” qüvvələrinin ciddi dəstəyi aydın görünür. Azərbaycan Ordusu öz torpaqlarımızda istənilən anda hərbi əməliyyatlar keçirə bilər. Bundan əlavə, Laçın dəhlizinin bağlanması üçün əlimizdə tutarlı faktlar var. Azərbaycanın bu istiqamətdə tədbirləri, Ermənistanın atacağı addımlardan asılı olacaq”.

**İsmayıl**

ŞƏRQ
Müstəqil ictimai-siyasi qəzet
15 noyabr 2022-ci il (çərşənbə axşamı)




**Səməd Seyidov,**
**Millət vəkili, professor**

# Qaçanlar...

**1914-1918-ci illərdəki Birinci Dünya müharibəsi Osmanlı, Avstriya-Macarıstan, Rusiya kimi ən güclü imperiyaların süqutu, Britaniya imperiyasının isə parçalanma prosesinin başlaması ilə nəticələndi. Bütün dünyada xaos və qanunsuzluq getdikcə daha çox vüsət alarkən, bəşəriyyəti hələ bir neçə onillik sonra faşizmin dəhşətləri ilə üz-üzə qalmaq gözləyirdi.**

Bu hadisələr, təbii olaraq, bizim regionumuzdan da yan keçmədi. Burada Osmanlı imperiyası mərkəzi güclərlə birgə rus-ingilis-fransız ittifaqı ilə mübarizə aparırdı. Müharibə yeni ərazilər əldə etməkdən daha çox mövcud olmaq, yaşamaq, öz dövlətçiliyinə, müstəqilliyinə, suverenliyinə sahib olmaq hüququ uğrunda aparılırdı. İmperiyalar bir-biri ilə vuruşarkən, xalqlar və millətlər arasında həmin prosesləri qızışdırır, onların müstəqillik, dövlətçilik uğrunda mübarizəsi isə öz növbəsində imperiyaları məhv edirdi.

XX əsrin əvvəllərindəki həmin dövrdə Qafqazda qanlı döyüşlərin getdiyi bir vaxtda ermənilərin bu günə qədər davam edən növbəti qaçış hekayəsi başladı. Məhz E.Frommun təsvir etdiyi qaçış, yəni məzhəbçiliyə, özünün müstəsnalıq ideyasına, ondan isə faşizmə və insanlığa nifrətə, yalançı təbliğat və uydurma şüarlara, əbədi qorxu və ifrat təcavüzə səbəb olan qaçış. Başqasının deyil, yalnız öz əlləri ilə qurulması labüd və mümkün olan öz taleyi və gələcəyi ilə bağlı məsuliyyətdən qaçış. Bu, eyni zamanda, reallıqdan qaçış və saxta təxəyyülün, tarixən iflasa uğramış ideyaların bir növ illüziya dünyasında yaşamaq istəyi idi.

Bu, Osmanlı imperiyasının artıq dağıldığı bir vaxtda baş verdi. Ermənilər əsrlər boyu yaşadıqları dövlətin tarixinin bu cür faciəli və kritik dönəmində onunla müharibə aparan Rusiya imperiyasının qucağına atılaraq, özlərini Osmanlı Türkiyəsinin dağıdılmasının alətlərindən birinə çevirdilər.

Daha çox xəyanətə bənzəyən bu qaçış, erməniləri bu günə qədər təqib edən ölümcül səhvləri oldu və onların dərin travmatik kompleksinə çevrildi. Erməni arxetipinin müəyyənedici məqamına çevrilən bu amil onları öz qaçışlarına milyonlarla insanın qanını, iztirabını, soyqırımını, türklərin "vəhşiliklərini", bir sözlə, onların haqlılığını "sübut edəcək" hər şeyi yamayaraq, bu qaçışı şüuraltı baxımdan əsaslandırmağa vadar etdi. Əslində, hadisələr təkcə ermənilər üçün deyil, həm də türklər və müharibənin dəhşətinə düçar olmuş bütün xalqlar üçün qanlı, iztirablı idi. Bu hadisələrin fetişləşdirilməsi və əsassız olaraq tarixdə "misli görünməmiş" "soyqırımı" səviyyəsinə çatdırılması ermənilərin Osmanlı Türkiyəsi ilə çoxəsrlik əlaqələrini özlərinin darmadağın etməsinin təzahürüdür. Heç də təsadüfi deyil ki, bu məsələ ilə bağlı çoxsaylı araşdırmalar erməni siyasi "elitasının" (xüsusi ilə də daşnakların) bu məsələdə oynadığı dağıdıcı rolu əyani şəkildə nümayiş etdirir.



Bu və ya digər şəkildə ermənilər Rusiya imperiyasında, sonra isə Sovet İttifaqında peyda olaraq, hər bir xalqın arzuladığı - dövlətçiliyi əldə etdilər. Əslində, "vəd edilmiş torpağı" Rusiya, sonra isə SSRİ vasitəsilə əldə etməklə onların aqibəti öz həllini tapmalı idi. Lakin reallıqlardan "qaçmağa" başlayan ermənilərin qarşısını almaq daha mümkün deyildi. Köç edən böyük insan axını ilə onlar dövlətçiliyi və sərhədləri, suverenliyi və müstəqilliyi olmayan, lakin bir-biri ilə özünü qurban göstərmə kompleksi və qisas ideyaları ilə bağlı olan başqa, onlar üçün daha cəlbedici virtual Ermənistan yaradaraq, həm regionun yaxın ölkələrində, həm də Avropada, ABŞ-da, Latın Amerikasında məskunlaşırdılar. Rus imperiyasının, bizim və daha sonra Sovetlərin onlara hədiyyə etdiyi hər bir xalqın arzusu olan dövlətçilik onları yalnız digər dövlətlər və xalqların daxilinə sızmaq üçün alət kimi maraqlandırırdı. Ermənistan getdikcə daha çox əsl mənada müstəqil dövlətə deyil, erməniçiliyin koordinasiya mərkəzinə çevrilirdi. Başqa sözlə, onların mentallığı, "Böyük Müharibə"nin arxetipik travmaları bütün dünya xalqlarının hər zaman can atdığı müstəqil dövlət konsepsiyasını deyil, daha güclü və nüfuzlu olanların hesabına yaşayan və inkişaf edən bir növ asılı, özünəməxsus şəkildə "parazit" dövlət anlayışını yaratdı.

Onlar müstəqil yaşaya bilmirdilər. Yaşadıqları dövlətin zəifləməyə və dağılmağa başladığını hamıdan əvvəl hiss etmək üçün hakim elitanın içinə müdaxilə edərək üzərində parazitləşib inkişaf edə biləcəkləri "bədənə" ehtiyacları var idi. Belə olduğu halda "daşıyıcı bədənin" dağılma səviyyəsi kritik həddə çatdıqda onlar daha güclü və perspektivli "bədənlərə" keçərək qaça biləcəkdilər.

Onlar Osmanlıdan bu cür qaçaraq Rusiya imperiyasına sığındılar və daha sonra o dağılmağa başlayanda Qafqazda onlara sığınacaq verən rus çarlarının imperiyasını məhv edərək "əsl" bolşevik inqilabçıları oldular. Sovet İttifaqı və bolşeviklər də istisna olmadı. Rusiya imperiyasından kommunist imperiyasına qaçaraq, ən yaxın qonşuları hesabına mövcud olma dairələrini genişləndirərək, ermənilər tamamilə eyni üsullarla ona uyğunlaşdılar. Mərkəzi Sovet hökumətindən hər şeyi əldə edərək, ermənilərin azərbaycanlıları öz tarixi torpaqları olan Zəngəzur, daha sonra Qarabağdan etnik təmizləməyə məruz qoyması, Qafqazda əsrlər boyu formalaşmış mehriban qonşuluq ruhunu məhv etməsi bunun bariz nümunəsidir. Ötən əsrin 80-ci illərinin sonlarında Qarabağda erməni millətçiləri tərəfindən törədilən müharibə buna birbaşa sübutdur. Lakin Sovet İttifaqı artıq zəifləyəndə, Qərb soyuq müharibədə qalib gələndə, Azərbaycanın İ.Əliyevin dəmir yumruğu başlarına endikdə yenidən farslara tərəf üz tutaraq onlarla tarixi köklərinin eyni olduğunu və bu səbəbdən Ermənistanın Qərbə tərəf "qaçdığı" dövr ərzində İranın vaxtilə ona xəyanət etmiş "qan qohumlarını" yedirib-içirtməli və qorumalı olduğunu bəyan etdilər.

Bu qaçış onlara regionda normal münasibətlər üçün heç bir şans qoymadı və onları "burada" yaşayıb "orada" olanlara təhkim olunmağa vadar etdi. Paşinyanın Qərb "atışı" eyni anda iki yeni "qi-

daxili ziddiyyətlər üzündən parçalanma təhlükəsi yarananda onlar üçün qaçmaq və yeni "bədənə" keçid anı yetişmişdi. Bu dəfə yeni "bədən" SSRİ-nin dağılmasından sonra yeni yaranan müstəqil Rusiya Federasiyası oldu.

Rusiya Federasiyası ilə "İttifaq" 30 il davam etdi. Ermənilərlə bu ittifaqın indi şahidi olduğumuz sonluğu iki fundamental amillə bağlıdır. Birincisi, təbii ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın tarixi qələbəsi, işğal altında olan bütün ərazilərin azad edilməsi və Ermənistanın kapitulyasiyası, ikincisi isə Rusiyanın Ukraynadakı müharibədə göz qabağında olan uğursuzluğudur. Son 30 ildə Azərbaycan və Rusiyadan demək olar hər şeyi, yəni ən səfalı ərazilərimizin 20 faizini, iqtisadiyyata milyardlarla Rusiya sərmayəsini, pulsuz silahları, texniki, iqtisadi, maliyyə və hərbi təhlükəsizlik infrastrukturunu alan Ermənistan əlindəkiləri itirdi və sahibinin "bədənində" narahatlıq hiss etməyə başladığı an, yenisini axtarmağa başladı...

Lakin yeni "donor" tapmaq cəhdləri bir tərəfdən regiondakı ümumi geosiyasi vəziyyətlə, digər tərəfdən isə ermənilərin regionda qaçmadığı və ya sığınmağa çalışmadığı qonşu dövlətin qalmaması ilə əlaqədar çətinləşdi. Dairə qapandı. Şah Abbasdan Osmanlıya, onlardan ruslara, daha sonra sovetlərə qaçaraq, onlar vəziyyətdən istifadə edib Azərbaycanın böyük bir hissəsini öz əllərinə keçirtdilər. Nəhayət, həm Sovet İttifaqına, həm də bizə xəyanət edib, yeni Rusiya Federasiyasından yapışaraq, onlara da eyni şəkildə satqınlıq edərək Qərb sivilizasiyasının bir hissəsi olduqlarını bəyan etdilər. Bu "vurnuxmalar" sırasında isə

dalanma" mənbəyində möhkəmlənməyi nəzərdə tuturdu: aparıcı Qərb dövlətləri daxilində yaradılmış virtual erməni "dövləti" olan diaspora və məhz, Qərb dövlətlərinin özlərinə. Lakin Qərb dövlətlərinin "bədənində" parazitləşən diasporun özü işlərin bu cür cərəyan etməsinə hazır deyildi və dərhal Paşinyanın erməni milli maraqlarına xəyanət etdiyini elan edərək, ondan yaxasını qurtarmağa tələsdi. Təkcə öz "bədənində" erməni "varlığına" öyrəşmiş və hətta bəzi hallarda (məsələn, Fransa) erməni "yenitörəməsini" bir növ özününkü hesab edən Qərb qaldı. Amma artıq qərb də dəyişərək, getdikcə daha çox anlamağa başladı ki, hər hansı dövlətə dəstək o zaman müsbət dəyərləndirilə bilər ki, bu dəstək həmin ölkəyə qonşu olan dövlətlər tərəfindən müsbət qarşılansın. Yəni bir ölkəni öz coğrafiyasından "dartıb çıxarmaq" əbəs və mənasızdır... Bu cür qidalanan, xaosa sürüklənən Əfqanıstan, İraq və bir çox başqa dövlətlər bunun əyani sübutudur. Deməli, Qərbin səyləri daha çox Ermənistanı dəstəkləməyə deyil, Ermənistanla qonşu dövlətlər arasında normal münasibətlərin qurulmasına yönələcək. Bu isə o zaman mümkündür ki, Ermənistan öz tarixində ilk dəfə həqiqətən öz dövlətçiliyi haqqında düşünsün, ekspansionizm, revanşizm və ksenofobiya kimi sərsəm fikirlərdən əl çəksin, öhdəlikləri üçün məsuliyyət götürməyə başlasın, özünə yeni bir himayədar tapmaq ümidi ilə vaxt uzatmağı dayandırsın. Dursun, qaçmasın və yeni himayədarlar axtarmadan, bölgədə çox ehtiyac duyulan sülhə töhfəsini təmin edərək, öz taleyini öz əlinə alsın.



## Aİ ölkələri Ukraynaya 8 milyard avro yardım edib

**Avropa İttifaqı (Aİ) və üzv ölkələr Ukraynaya azı səkkiz milyard avro (8,27 milyard dollar) dəyərində silah və hərbi texnika verib.**

APA xəbər verir ki, bu barədə Aİ-nin Xarici siyasət və Təhlükəsizlik məsələləri üzrə Ali Nümayəndəsi Cozep Borrell bildirib.

Avropa İttifaqının baş diplomatı bildirib ki, bu məbləğ ABŞ-ın Kiyevə tədarük etdiyi yardımın təxminən 45%-nə bərabərdir.

## Azad edilən ərazilərdə daha 349 mina aşkarlanıb

**Azərbaycan Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə ötən həftə daha 349 mina aşkarlayıb.**




ANAMA-dan verilən məlumata görə, noyabrın 7-dən 12-dək Tərtər, Ağdam, Xocavənd, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılan minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 170, tank əleyhinə 179 mina və 357 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Nəticədə 485 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib.

## AZAL açıqladı

### "Dubaya səfər etmək üçün pandemiya məhdudiyyətləri aradan qaldırılıb"



**"Azərbaycan Hava Yolları" QSC Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərinə səfər etmək istəyənlərə müraciət edib.**

Müraciətdə deyilir ki, artıq bu istiqamətdə səyahət edənlərdən koronavirus (COVID-19) pandemiyası ilə bağlı PSR-testi və yaxud vaksin sertifikatı tələb olunmur.

Azərbaycan vətəndaşları üçün vizanı öncədən rəsmiləşdirmək kifayətdir.

# Lider ölkə Türkiyə və Azərbaycandır

## Bu gedişlə türk dünyası lap yaxın gələcəkdə böyük iqtisadi və siyasi güc mərkəzinə çevriləcək




**”Türk dövlətlərinin liderlərinin tez-tez bir araya gəlməsi olduqca xoş hadisədir və nə yaxşı ki, bu, getdikcə bir ənənəyə çevrilməkdədir”. Bu sözləri ”Şərq”ə Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib. Partiya rəhbəri qeyd edib ki, Türk Dövlətləri Təşkilatının Səmərqənddə keçirilən IX Zirvə Görüşü də bu ənənənin davamıdır:**

”Liderlərin görüşləri türk dövlətləri arasında əlaqələri daha da genişləndirir və sıxlaşdırır. Prezident İlham Əliyev də Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşünə qatıldı və burada olduqca maraqlı çıxış etdi. Dövlət başçımızın Türk Dövlətləri Təşkilatının Özbəkistanın tarixi paytaxtı Səmərqənddə keçirilən IX Zirvə Görüşündə etdiyi çıxışında üç məqamı xüsusilə qeyd etmək istərdim. Prezidentin çıxışından bir daha aydın oldu ki, Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrlə əlaqələrin bütün sahələrdə möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri olaraq qalır. Azərbaycan bütün kənar təsirlərə və geosiyasi tələtümlərə baxmayaraq həmişə türk dünyasının sıx birləşməsinə öz töhfəsini verib və heç şübhəsiz ki, ölkəmiz bundan sonra da türk dünyasının birliyi istiqamətində səylərinə sadiq qalacaq. Zirvə Görüşünə qatılan liderlər bir daha əmin oldular ki, Azərbaycan türk dünyasının inteqrasiyası istiqamətində ən fəal iş aparan bir ölkədir. Azərbaycanın bu fəallığı Türk Dövlətləri Təşkilatına üzv olan digər türk cümhuriyyətlərini də hərəkətə gətirən müsbət nümunə rolunu oynaya bilər. Türk dünyası istər coğrafi baxımdan, istərsə də təbii sərvətlər və insan resursları nöqteyi-nəzərindən olduqca böyük potensiala malikdir. 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə edən türk dünyası nəhəng iqtisadi potensialı, enerji resursları, nəqliyyat yolları və infrastrukturu ilə həqiqətən də böyük sıçrayışa səbəb ola bilər”.

**Ə.Hüseynova görə, buna nail olmağın yolu isə ilk növbədə türk dövlətləri birliyinin düzgün yönləndirilməsindən və türk dünyasının gələcək hədəflərinin düzgün müəyyən edilməsindən keçir:** ”Bütün sahələrdə - həm siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm sahələri üzrə, həm də təhlükəsizlik, ordu quruculuğu, müdafiə sənayesi kimi sahələrdə əməkdaşlığımız indi olduğundan qat-qat artıq genişləndirilməlidir. Və bunun üçün hər cür imkanlar var. İmkanlardan düzgün və səmərəli istifadə edilməlidir. Türk dünyası sözdə yox, praktik olaraq böyük bir ailə olduğunu real nəticələrdə göstərməlidir. TDT-yə üzv olan hər bir ölkə digər türk cümhuriyyətlərinin milli maraqlarını nəzərə alaraq qarşılıqlı dəstək və həmrəylik xəttini yürütməlidir. Biz əminik ki, Türkiyə və Azərbaycanın liderlik etdiyi türk dünyası bu gedişlə lap yaxın gələcəkdə böyük iqtisadi və siyasi güc mərkəzinə çevriləcək. Lakin bu da nəzərə alınmalıdır ki, türk dünyası təkcə müstəqil türk dövlətlərindən ibarət deyil, onun coğrafi sərhədləri daha genişdir. Azərbaycan Prezidentinin öz çıxışında toxunduğu ikinci əsas məqam məhz bu məqam oldu. Bəli, Türk Dövlətləri Təşkilatının üzvləri olan ölkələrdən kənarda yaşayan soydaşlarımızın hüquqlarının, təhlükəsizliyinin, milli kimliyinin qorunması, onların assimilyasiyaya uğramaması kimi məsələləri artıq təşkilat çərçivəsində daimi əsasda diqqətdə saxlamağın vaxtı artıq gəlib çatıb. TDT-nin bu məsələni özünün əsas prioritet istiqamətlərindən birinə çevirməsi zəruridir. Milli kimliyin, milli identikliyin qorunması bütün türk dünyasının ortaq məsələsi olmalıdır”.

*Əlisahib Hüseynov vurğulayıb ki, dövlət başçısı bu məsələnin davamı kimi Azərbaycan dövlətinin hüdudlarından kənarda yaşayan 40 milyon azərbaycanlının əksəriyyətinin təhsil almaq imkanlarından məhrum olunduğunu dilə gətirdi.* Ölkə rəhbərinin bu bəyanatı təkcə güneyli soydaşlarımıza dəstək mesajı deyil. Bu həm də azərbaycanlıları diskriminasiyaya məruz qoyan, sıxışdıran bütün rejimlərə, o cümlədən rəsmi Tehrana açıq xəbərdarlıqdır. Milli Həmrəylik Partiyası İlham Əliyevin xaricdəki soydaşlarımızla bağlı qətiyyətli mövqeyini dəstəkləyir.

Səmərqənddəki Zirvə Görüşündə Azərbaycan Prezidentinin ”Qarabağ münaqişəsi tarixdə qaldı” səpkili bəyanatı da Zirvəyə öz damğasını vuran məqamlardan biri oldu. Oktyabr ayında Praqada və Soçidə qəbul edilmiş birgə bəyanatlarda Azərbaycanın və Ermənistanın bir-birinin ərazi bütövlüyünü və suverenliyini rəsmən tanıdıqlarını vurğulayan dövlətimizin başçısının qeyd etdiyi kimi, bu, bir daha onu göstərir ki, Qarabağ münaqişəsi həqiqətən də artıq tarixdə qalıb və heç kim bu münaqişəni süni surətdə yenidən gündəmə gətirməyə cəhd göstərməməlidir. Böyük dövlətlər erməni xalqını və Ermənistan dövlətini geosiyasi ”oyuncaq” kimi, Azərbaycana qarşı ”dəyənək” kimi istifadə etmək praktikasına son qoymalıdırlar. Təcrübə göstərdi ki, ermənipərəst siyasət yürüdənlər sonda fiasko ilə üzləşirlər”.

**İsmayıl Qocayev**




## MEDİA onlayn və çap mediası üçün müsabiqə elan edib

**Medianın İnkişafı Agentliyi onlayn media subyektlərinə və çap mediası subyektlərinə dəstək üçün müsabiqə elan edib.**

**MEDİA-dan ”Şərq”ə verilən xəbərə görə, Media Reyestrinə daxil edilmiş ictimai-siyasi və idman məzmunlu kütləvi informasiya dərc edən onlayn media subyektləri müsabiqədə iştirak edə bilərlər.**

Müsabiqədə iştirak etmək üçün müraciət və ona əlavə edilən sənədlər elektron formada mib.media.gov.az portalı vasitəsilə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinə təqdim edilir.

Müsabiqənin yekununda qalib elan edilmiş onlayn media subyektləri ilə Agentlik arasında həmin subyektlərin hər birinə aylıq 3000 (üç min) manat məbləğində maliyyə yardımının göstərilməsinə dair müqavilə imzalanır və 6 (altı) ay müddətində qüvvədə olur.

Eyni zamanda Media Reyestrinə daxil edilmiş ictimai-siyasi qəzetlər müsabiqədə iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək üçün müraciət və ona əlavə edilən sənədlər elektron formada mib.media.gov.az portalı vasitəsilə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinə təqdim edilir.

Müsabiqənin yekununda qalib elan edilmiş qəzet redaksiyaları ilə Agentlik arasında maliyyə yardımının göstərilməsinə dair müqavilə imzalanır və 6 (altı) ay müddətində qüvvədə olur.

Həftədə bir nömrəsi maliyyələşdirilən qəzetlərin hər birinə aylıq 5000 manat, həftədə beş nömrəsi maliyyələşdirilən qəzetlərin hər birinə aylıq 15000 min manat, qəzetin eyniadlı veb-saytına isə aylıq 3000 manat (əsaslı yenilənmə niyyəti ifadə edilmişdirsə, ilk ay 5000 manat olmaqla) məbləğində maliyyə yardımı göstərilir.

**Aygün**

## Milli Məclisdə yeni şöbə yaradılıb

### Emil Tağıyev təyinat alıb



**Milli Məclisdə yeni şöbə yaradılıb.**

Milli Məclisin Aparatında yeni - Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsi yaradılıb.

Yeni şöbənin müdiri vəzifəsinə isə Emil Eldar oğlu Tağıyev təyin edilib.

*Qeyd edək ki, o, bundan öncə Milli Məclisin Komitələrin və komissiyaların işinin təşkili şöbəsinin müdir müavini vəzifəsində çalışıb.*

# Mirzoyan kömək axtarışındadır

## Kənan Novruzov: “İndiki səfərdən sonra Ermənistanın növbəti provokasiyalar törətməsi mümkündür”

**”Rəsmi Paris Ermənistanın əsas havadarlarındandır. Fransada çox güclü erməni diasporu var. Onlar uzun müddət Ermənistanın işğalına haqq qazandırıblar. Fransa Minsk Qrupunun tərkibində 30 il vasitəçi kimi fəaliyyət göstərdiyi müddət ərzində heç bir nəticəyönümlü işlə məşğul olmayıb. Əksinə, konfliktin uzanmasına çalışıb”.**

*Bunu”Şərq”ə açıqlamasında jurnalist, siyasi şərhçi Kənan Novruzov deyib.*

K.Novruzovun qənaətincə, Ermənistan xarici işlər nazirinin Parisə səfərindən müsbət nəsə gözləməyə dəyməz: ”Çox güman, nazirlər Cənubi Qafqazdakı durum barədə də müzakirə aparıblar. Bəlkə də ”bağlı qapılar arxasında” Mirzoyan həmkarından kömək istəyib. O, Azərbaycanla münasibətlərin son mərhələsi haqda saxta məlumatlar verib, bizi ittiham edib. Yəqin, Kolonna da inanmağı seçib.

Adətən Mirzoyanın xaricə, xüsusilə ona havadarlıq edən ölkələrə səfərlərindən sonra şərti dövlət sərhədində təxribatların intensivləşməsi təsadüfi deyil. Çünki hər səfərdən sonra İrəvan havadarlarının dəstəyini hiss edir, ürəklənir. İndiki səfərdən sonra isə Ermənistanın növbəti provokasiyalar törətməsi mümkündür.



Bu, Ermənistanın yox, onun havadarlarının maraqlarına uyğundur. Məhz Ermənistanın təxribatları nəticəsində bölgədə vəziyyət gərginləşir və üçüncü güclərin regiondakı mövcudluqları təmin olunur. Ermənistan reallıqları anlamalıdır və başqasının maşası olmağın onun üçün yaxşı nəsə vəd etmədiyini başa düşməlidir. Əgər Ermənistanın hərbi-siyasi hakimiyyəti bunu anlamasa, özünü daha çıxılmaz duruma salacaq”.

*Qeyd edək ki, Ermənistanın xarici işlər naziri noyabrın 10-da Fransaya işgüzar səfərə yollanıb. O, Parisdə Fransanın Xarici işlər naziri Katrin Kolonna və başqa rəsmilərlə görüşüb. Noyabrın 11-12-də Fransanın paytaxtında 5-ci Paris Sülh Forumunda da iştirak edib.*

**Aygün Tahir**






# İstanbul terroru

## Məqsəd Türkiyədə, toplum arasında qorxu yaratmaqdır




**Noyabrın 13-də Türkiyədə, İstanbulun mərkəzi sayılan İstiqlal prospektində terror hadisəsi törədilib. Dəhşətli partlayış nəticəsində 6 nəfər həyatını itirib, 81 nəfər isə yaralanıb. Hadisədən bir müddət sonra partlayışı törədən qadın saxlanılıb. Onun PKK terror təşkilatının üzvü olduğu məlum olub.**

Terrorçu Suriya əsilli Ahlam Albashırdır. Erməni terror təşkilatı ASALA da İstanbul teraktını öz üzərinə götürüb. Qruplaşma Türkiyə ilə yanaşı, Azərbaycanı da hədələyib. Türkiyənin Daxili işlər naziri Süleyman Soylu terrorla mübarizənin ən kəskin formada davam edəcəyini söyləyib. Nazir terrora "göz yuman" bir sıra dövlətlərə də mesaj verib: "Terrorçulara güc verən, pul göndərən müttəfiqlərin qeyri-səmimiliyi göz qabağındadır. Bu hücumu həyata keçirənlərin bizə hansı mesajı vermək istədiklərini bilirik. Bu mesajı aldıq. Qarşılığını daha ağır verəcəyik. Bu mesaja cavab aydın olacaq. Təbii, kədərimiz çox ağırdır". Süleyman Soylu ABŞ-ın İstanbuldakı hücuma reaksiyasını tənqid edib: "Düşünürəm ki, ABŞ-ın verdiyi başsağlığına xüsusi diqqət yetirmək lazımdır. Biz ABŞ-ın başsağlığını qəbul etmirik. Bu mesaja cavab çox aydın olacaq". Qeyd edək ki, Ağ Evin sözçüsü "ABŞ İstanbulda baş verən zorakılıq aktını qətiyyətlə pisləyir" və həmçinin "yaxınlarını itirənlərə dərin hüznlə başsağlığı verir" deyə məlumat yayıb.

İstanbul şəhərinin valisi Ali Yerlikaya deyib ki, partlayışdan sonra xəstəxanalara yerləşdirilən yaralıların 57 nəfəri evə buraxılıb. O qeyd edib ki, 18 nəfər müalicəsini davam etdirir, onlardan 6 nəfəri reanimasiya və intensiv terapiya şöbəsindədir. Xəstələrdən ikisinin vəziyyəti ağırdır: "Yaralıların tez bir zamanda sağlamlıqlarına qovuşması üçün dualar edirik". Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop isə bildirib ki, Türkiyənin stabilliyini pozmaq istəyənlər gec-tez özləri qeyri-stabilliyə sürüklənəcəklər: "Aparılan araşdırmalar nəticəsində terror aktının arxasında kimlərin durduğu mütləq ortaya çıxacaq və Türkiyə bunun cavabını ən sərt şəkildə verəcək. Azərbaycan və Türkiyə baş prokurorları İstanbulda törədilmiş terror aktı cinayətinin araşdırılması və təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsi istiqamətində fikir mübadiləsi aparıb.

Terror aktının məhz indiki dönəmdə baş verməsi ilə bağlı müxtəlif mülahizələr var. Xüsusən, Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündən qısa müddət sonra, həmçinin gələn il keçiriləcək prezident və parlament seçkisinə az qalmış İstanbulda terror aktının törədilməsi xeyli suallar yaradır. Türkiyədə sonuncu dəhşətli terror hücumu 2016-cı ilin son günü, 2017-ci ilə keçən gecə baş vermiş "Reina" aktı idi. Buna qədər Türkiyədə davamlı şəkildə terror hücumları yaşanırdı. "Reina" terrorundan sonra hücumlar səngidi, xüsusilə İstanbul kimi böyük şəhərlərdə terror "yoxa çıxdı". Ekspertlərin fikrincə, bu, Türkiyənin təhlükəsizliyini gücləndirməsi ilə yanaşı, həm də dünyadakı geosiyasi proseslərdən qaynaqlanırdı. Xüsusilə "Reina" terrorunun törədildiyi dönəm ABŞ-da demokratların hakimiyyəti təhvil verməsinə təsadüf etmişdi. Respublikaçılar dövründə Türkiyənin terrorla hədəfə alınması prosesi səngimişdi. Hədəfin indiki məqamda daha çox seçkiyə hazırlaşan Türkiyənin daxili siyasətinə yönəlməsi ehtimalı ön plandadır.

**"Teraktın daxili siyasəti hədəfləyən məqsədləri də ola bilər. Çalışırlar ki, toplum seçki öncəsi təhlükəsizliklə bağlı şübhəyə, hətta ümidsizliyə düşsün"**

**Millət vəkili Arzu Nağıyev "Şərq"ə deyib ki, teraktın dəsti-xəttindən görünür ki, məqsəd Türkiyədə, toplum arasında qorxu yaratmaqdır. Deputatın sözlərinə görə, məqsəd bu terakt üzərindən siyasi ab-havanı formalaşdırmaq və müəyyən mesajlar verməkdir:** "Türkiyədə terror aktları əsasən, hərbçilərə, polislərə, yaxud səfirliklərə, hansısa funksiyası olan böyük qurumlara qarşı törədilirdi. Lakin İstanbul terroru sanki gələcəkdə Türkiyəyə qarşı hansısa siyasi bəyanatlar verməyə hesablanıb. ASALA isə yaranmış fürsətdən istifadə edərək öz "varlığını" ortaya qoymaq məqsədi güdür. Erməni terrorunun bitmədiyini, lazım olan anda "işə düşdüyünü" demək istəyirlər. Teraktın daxili siyasəti hədəfləyən məqsədləri də ola bilər. Çalışırlar ki, toplum seçki öncəsi təhlükəsizliklə bağlı şübhəyə, hətta ümidsizliyə düşsünlər. Digər məqam odur ki, türk birliyi böyüdükcə, Türk Dövlətləri Təşkilatı güclendikcə və təsir imkanlarını artırdıqca həmin qüvvələr terrora əl atırlar. Daxili işlər naziri Süleyman Soylunun açıqlamalarından aydın olur ki, hədəflərdən biri də AKP iqtidarının daxilində parçalanma yaratmaq olub. Ona görə də hesab edirəm ki, İstanbulda baş vermiş teraktda sadəcə bir xətt axtarmaq doğru deyil. Hədəf və məqsədlər çoxsaylı ola bilər. Bir məqama da diqqət çəkim ki, terrordan sonra Azərbaycanın təhlükəsizlik xidmətləri dərhal İranın casus şəbəkəsini ifşa etdilər".

**"Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru Osman Gündüz isə bildirib ki, DTX-nın bir əməliyyatla İranın ölkəmizə qarşı casusluq edən 5 əməkdaşının ifşa olunması və vətənə xəyanət maddəsi ilə məsuliyyətə cəlb olunması istiqamətində fəaliyyəti ciddi, sistemli və uzunmüddətli işin nəticəsi olaraq dəyərləndirilə bilər.** Ekspertin fikrincə, bu əməliyyat, hətta İran və Azərbaycan arasındakı dövlətlərarası münasibətlərə ciddi təsir edə biləcək səviyyədədir: "Görünən odur ki, qonşu İranın xüsusi xidməti açıq-aşkar Azərbaycan əleyhinə casus şəbəkəsi formalaşdırıb və özünün kəşfiyyat maraqlarını həyata keçirir. Bu tip hərəkətlər son zamanlar hətta sosial mediada açıq fəaliyyət göstərən bəzi iranpərəstlərin də çıxışlarından görünür. Güman etmək olar ki, İranın son zamanlar Azərbaycan əleyhinə təhdidlərinin artmasından, sərhəddə hərbi təlimlər keçməsindən sonra Azərbaycana qarşı işləyən casus şəbəkə də aktivləşib. DTX-nın bununla bağlı açıqlamasında diqqət cəlb edən həm də bu agentura şəbəkəsinin topladığı məlumatları "Telegram" və "WhatsApp" kimi sosial media resurslarından istifadə etməklə ötürməsidir. Maraqlıdır ki, bu agentura şəbəkəsi daha təhlükəsiz olan "Signal"dan deyil, FETÖ şəbəkəsinin istifadə etdiyi "ByLock" tipli mesencerlərdən deyil, daha adi sosial resurslardan istifadə ediblər. Ehtimal ki, DTX Meta şirkətinə və "Telegram"ın ofislərinə cinayət məsuliyyətinə cəlb olunanlarla bağlı əlavə məlumatların verilməsi üçün müraciət edib. Qlobal resurslar beynəlxalq normalara görə cinayət işi başlananlarla bağlı əsaslandırılmış sorğular daxil olduqda məlumatları təqdim etməyə borcludur. Amma adətən bu tip qlobal şirkətlərdə ikili standartlar da olur. Odur ki, "Telegram"ın casuslarla bağlı məlumatları Azərbaycan tərəfinə verəcəyi inandırıcı görsənməsə də, düşünürəm ki, Meta şirkətindən "WhatsApp" istifadəçisi olan casus şəbəkə üzvləri haqqında məlumatları əldə etmək mümkündür. Xüsusi xidmət orqanlarımızın İranın agentura şəbəkəsinə qarşı fəaliyyəti təqdirəlayiqdir".

**İsmayıl Qocayev**

# Bakı və ətrafda hələ də sənədsiz evlər tikilir

## Bu evlərdə yaşayanlar kommunal xidmətlər ödədiyinə görə onların yaşamaq hüququ tanınmalıdır

**Bakı Şəhər İcra Hakimiyyətində paytaxt rayonlarının icra hakimiyyəti başçıları və müvafiq təsərrüfat strukturları rəhbərlərinin iştirakı ilə qış zamanı güclü qar yağmasına hazırlığın vəziyyəti, paytaxt rayonlarında qanunsuz tikinti və küçə ticarətinə qarşı aparılan tədbirlərə həsr edilən müşavirə keçirilib.**

Müşavirədə paytaxt rayonlarında qanunsuz tikinti və küçə ticarəti ilə bağlı vəziyyət müzakirə edilib, qeyd edilib ki, son 6 ay ərzində bu hallar 2,5 dəfə azalsa da, yenə də bəzi rayonlarda yer almaqdadır.



**Hüquqşünas Əkrəm Həsənov isə deyib ki, uzun illərdir bu barədə danışılır. Əsasən Bakı və ətrafında müxtəlif sənədlərlə, bəzən də sənədsiz evlər tikilib.** 10 minlərlə insan belə evlərdə yaşayır. Onlar həmçinin, kommunal xidmətlər ödəyir, işıq, qaz, su xidmətlərindən istifadə edir. Dövlətə pul ödəyirlər: "Vətəndaş yaşadığı yerdə kommunal xidmətləri ödəyirsə və dövlət göstərdiyi kommunal xidmətlərdən ödəniş alırsa, deməli, insanın faktiki orada yaşamaq hüququnu tanıyır. Vətəndaşın yaşamaq hüququnu tanıdığına görə dövlət həmin evin sənədləşməsini də həyata keçirməlidir. Belə bir əmsal qərar Avropa Şurasının üzvü olaraq Azərbaycana da aiddir. Ona görə Azərbaycan tərəfi qanunsuz tikililərin olmaması üçün bundan istifadə etməlidir. Sözsüz ki, qanunsuz evlərin tikilməsində kimlərinsə qeyri-qanuni əməlləri də olub. Amma artıq fakt olaraq bu evlərdə ailələr yaşayır. Ona görə də həmin əmlaklara amnistiya verilməli, hamısına çıxarış təqdim edilməlidir ki, problem birdəfəlik həllini tapsın. Ondan sonra isə artıq sənədsiz tikintilərə icazə verilməməlidir. Bu, problemin həllinin ən doğru və optimal yoludur".

**Şəymən**

# Qanunsuz erməni silahlıları mövqelərimizi atəşə tutub

## Bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb



**Noyabrın 13-ü axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri İstisu yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Kəlbəcər rayonu ərazisində yerləşən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan atəşə tutub.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən məlumat verilib.

Bundan başqa, noyabrın 14-ü saat 04:00-da Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstəsinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Xocavənd rayonu istiqamətində yerləşən mövqeləri atəşə tutulub. Azərbaycan Ordusunun bu istiqamətlərdə yerləşən bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

**Kəmalə Ağazadə:** “Bizim xalqımızın mentalitetində var ki, hansısa uşağa baxırlarsa, onu özününküləşdirsinlər”

# Çətin olsa da, mümkündür

## Türkiyənin “Qoruyucu ailə sistemi”nin Azərbaycanda tətbiqi uğurlu olacaq



**Azərbaycanda valideyn himayəsindən məhrum olmuş uşaqların ailə mühitində yaşamasını nəzərdə tutan yeni "Himayədar ailə" qayğı modelinin tətbiqi gündəmdədir. Belə ki, Türkiyənin "Qoruyucu ailə sistemi" Azərbaycanda da tətbiq olunacaq.**

Qeyd edək ki, Türkiyədə qoruyucu ailə modelinin ölkəmizdə tətbiqi ilə bağlı ötən ildən başlanmış işlər çərçivəsində bu ölkənin Ailə və Sosial Xidmətlər Nazirliyi tərəfindən azərbaycanlı mütəxəssislərə təlim keçirilib. Nazirlikdən verilən məlumata görə, Azərbaycanın müraciəti əsasında Türkiyədə qoruyucu ailə xidməti modelinin ölkəmizdə də tətbiqi istiqamətində əməkdaşlıq davam edir.

Mütəxəssislər Azərbaycanın sosial müdafiə sahəsində çalışan 60 peşəkar işçiyə Türkiyədə həyata keçirilən himayədar ailə xidmətinin tətbiqi prinsipləri, uşaqların himayə altına alınması prosesləri, himayədar ailə modelləri, himayədarlara edilən ödənişlər, himayədar ailə təlimləri və sosial-iqtisadi dəstək xidməti mövzusunda tətbiq prinsipləri mövzusunda təlim keçiblər.

"Himayədar ailə" modeli deinstitutlaşmada yeni mərhələ olmaqla, valideyn himayəsindən məhrum uşaqların uşaq müəssisələrinə düşməsinin qarşısının alınması və onların ailə mühitində böyüməsinə şərait yaradılmasını, bununla bərabər, himayədar ailələrə dəstək verilməsi mexanizmini özündə ehtiva edir.

Qeyd edək ki, himayədar ailə - ilk olaraq uşağın öz ailəsində qalması üçün sosial dəstəyin göstərilməsi, bu alınmayanda himayədar ailə mexanizminin işə düşməsi, bu da nəticə verməddikdə övladlığa verilməsi üçün tətbiq olunan bir mexanizmdir. Məlumat üçün bildirək ki, himayədar ailə modeli övladlığa götürmədən fərqlənir. Prosedur müəyyən qədər eyni olsa da, himayədar ailədə uşaqların saxlanılması üçün xərclər qarşılanır.

Bəs görəsən, "Himayədar ailə" modelinin tətbiqi nə dərəcədə effektlidir? Bu modelin övladlığa verilmədən üstünlüyü nədir?

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Aparatının Övladlığagötürmə siyasəti şöbəsinin müdiri Fərhad Ələkbərovun sözlərinə görə, dövlət başçısının 15 fevral 2022-ci il tarixli fərmanı ilə noyabrın 1-dən nazirliyə bəzi səlahiyyətlər verilib. Bunlardan biri də himayədar ailə sahəsində dövlət siyasəti, tənzimləmə, himayədar valideynlərin elektron uçotunun aparılmasıdır:** "Himayədar ailə alternativ ailə, qayğı formasıdır, yəni valideyn himayəsindən məhrum olmuş uşaqlar qayğıya cəlb edilməklə onların ailə mühitində yaşaması təmin edilir. Uşaqların xərclərinin qarşılanması üçün onlara dövlət tərəfindən müavinət təyin olunur. Övladlığa götürmədən fərqli olaraq burada uşaqla valideynlər arasında ata-ana-övlad münasibəti yaranmır. Himayədar ailə professional xidmətdir. Burada məqsəd uşağın müəssisəyə düşməsinin qarşısını almaq, onun ailə mühitində yaşamasını təmin etməkdir. Müəssisədə qayğı, uşağın fiziki, psixoloji inkişafı daha zəif gedir, nəinki ailə mühitində. Eyni zamanda ailədə uşaq sosiallaşır, cəmiyyətə qaynayıb, qarışır. Bu mexanizmin Azərbaycanda necə işləyəcəyini müəyyənləşdirmək üçün araşdırmalar aparılıb. Bunun din, mədəniyyət və cəmiyyət baxımından bizə yaxın olan Türkiyədə uğurlu tətbiq olunduğu müşahidə edilib. Eyni zamanda layihəyə başlamazdan əvvəl elektron sorğu keçirilib və kifayət qədər maraqlı nəticələr əldə olunub. Belə ki, respondentlərin böyük əksəriyyəti bu mexanizmin tətbiq olunacağı halda qeyd-şərtsiz hər hansı ödəniş olmadan belə uşaq himayəyə götürüb baxa biləcəklərini bildiriblər".

*F.Ələkbərovun sözlərinə görə, bu model Azərbaycan cəmiyyəti üçün yad deyil:* "Cəmiyyətdə kifayət qədər ailələr var ki, öz qohumunun, qonşularının övladlarını götürüb saxlayır, qeyri-rəsmi qayğı göstərirlər. Buna görə hər hansı ödəniş almırlar. Hüquqi mexanizm formasında təsdiq edilməsi bu qayğını daha cəlbedici edəcək. Mexanizm yeni olduğu üçün ilk vaxtlarda müraciət sayı az və ya müəyyən problemlər ola bilər, amma bunlar zamanla həll olunacaq. Məsələn, Türkiyədə bir neçə onillikdir ki, bu mexanizm tətbiq olunur, əvvəlki illərdə himayədar valideynlərin sayı az olsa da, hazırda dövlətin diqqəti sayəsində onların sayı artıb".

**Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə "Şərq"ə açıqlamasında Azərbaycanda "Himayədar ailə institutunun yaradılmasının kifayət qədər vacib addım olduğunu deyib.** Ölkəmizdə valideyn himayəsindən məhrum olmuş uşaqların ailə mühitində yaşaması son dərəcə mühüm istiqamətlərdəndir: "Bu model təkcə Türkiyədə yox, inkişaf etmiş ölkələrin hər birində var. Amma Azərbaycanda məhz Türkiyə modelinin tətbiqi təqdirəlayiqdir. Həm millət olaraq birliyimiz, həm də qanunvericiliyimizdəki bənzərliklər fonunda bu modelin Azərbaycanda tətbiqinin uğurlu olacağını düşünürəm. Türkiyədə sosial iş institutu kifayət qədər formalaşıb və onların peşəkar kadrlarının təcrübələrindən yararlanmaq ölkəmiz üçün faydalı bir işdir. Qoruyucu ailələrin sayəsində hər il Türkiyədə nə qədər uşağın uşaq müəssisəsinə düşməsinin qarşısı alınır".

**K.Ağazadənin sözlərinə görə, Türkiyənin "Qoruyucu ailə sistemi"nin Azərbaycanda da tətbiq olunması uşaqların düzgün formalaşması, layiqli vətəndaş kimi böyüməsi baxımından çox önəmli bir layihədir:** "Uşaq müəssisələrində böyüyən uşaqların kütləvi tərbiyələndirilməsindənsə, bu uşaqların xüsusi təlim keçmiş himayədar ailələrdə böyüməsi və tərbiyə alması daha məqsədəuyğundur. Azərbaycanda himayədar ailələrin yaradılması bir qədər çətin olsa da, mümkündür: Bizim xalqımızın mentalitetində var ki, hansısa uşağa baxırlarsa, onu özününküləşdirsinlər. Belə düşünürlər ki, uşağa baxıb onun böyüməsinə dəstək olacaqlarsa, ona valideynlik hüququ onlara məxsus olmalıdır. Bəzən ehtiyat edirlər ki, qayğı və dəstək göstərdikləri uşaq böyüyəndə öz ata-anasının yanına qayıdar. Ona görə də himayədar ailə ilə bağlı insanlara məlumat vermək, himayədar ailə modelini yaratmaqda əsas məqsədin ailə qayğısından məhrum olmaq riski ilə üzləşən uşaqların uşaq evlərinə düşmə təhlükəsini önləmək məqsədinə xidmət etdiyi izah olunmalıdır". Bu modelin uşaq alverinə rəvac verəcəyi ilə bağlı iddialara gəldikdə isə K.Ağazadə belə bir təhlükənin real olmadığını deyib: "Daha doğrusu, insan alverindən heç bir ailə, heç bir uşaq sığortalanmayıb. Bu işlə məşğul olan cinayətkarlar himayədar ailələrdə böyüyən uşaqları da hədəf ala bilər, bioloji ailədə böyüyən uşaqları da".

**Şəymən**




# 1 nəfəri vəfat edib

## 4 yeni yoluxma faktı qeydə alınıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 4 yeni yoluxma faktı qeydə alınıb, 3 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 1 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 823 725 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 813 573 nəfər müalicə olunaraq sağalıb, 9 964 nəfər vəfat edib, aktiv xəstə sayı 188 nəfərdir.

Ölkədə son sutka ərzində 752, hazırkı dövrədək isə 7 345 149 test aparılıb.

# Maaşlar da, təqaüdlər də artırılmalıdır

## Çünki inflyasiya, qiymət artımı insanların belini büküb

**Bir neçə gün öncə millət vəkili Vahid Əhmədov parlamentin iclasında minimum əmək haqqının artırılmasını təklif edib. Deputat bildirib ki, büdcədə qalığın qalmasının tərəfdarı deyil: "Pulu xərcləməyə veriblər. Hazırda minimum əmək haqqı 300 manatdır, bunu 500 manat etmək lazımdır ki, əhali normal dolansın. Artıq pulunuz varsa, əhaliyə verilməsinin tərəfdarıyam".**



*İqtisadçı Natiq Cəfərli deputatın təklifinə münasibət bildirərkən deyib ki, maaşlar da, təqaüdlər də artırılmalıdır. Çünki inflyasiya, qiymət artımı insanların belini büküb. Ancaq ekspert bildirib ki, bu addımı atmadan öncə bir neçə məsələ də mütləq həll edilməlidir:* "İlk növbədə qanunvericilikdə VÖEN-lə çalışanların Sosial Müdafiə Fonduna ödənişlərinin minimum əmək haqqına bağlantısı aradan qaldırılmalıdır. Çox mənasız qaydadır. Məsələn, ay ərzində 500 manat dövriyyəsi olan da, 5000 manat olan da eyni ödəniş, yəni minimum əmək haqqının 25 faizini DSMF-yə ödəməlidir. Bəzi fəaliyyət növlərində hətta 50 faizini ödəmək məcburiyyəti var. Bu yanaşma qanundan çıxarılmalıdır, minimum əmək haqqı artdıqca Sosial Müdafiə Fonduna ödənişlərin də avtomatik olaraq artması doğru yanaşma deyil. Ona görə də bu bağlantı qanunvericilikdən çıxarılmalı, əvəzində ancaq dövriyyədən DSMF-yə ödəniş nəzərdə tutulmalıdır. Təklif edirəm ki, dövriyyənin 2 faizi DSMF-yə ödəniş kimi ayrılmasını nəzərdə tutan yeni qanun qəbul edilsin".

“Maaş və təqaüdləri artırmaqla paralel olaraq vergilər və gömrük dərəcələri də azaldılmalı, inflyasiyanı aşağı çəkəcək tədbirlər görülməlidir”

N.Cəfərliyə görə, daha bir problem odur ki, indiki iqtisadi sistemdə maaş və təqaüdlərin artırılması əlavə inflyasiya basqısı yaradır: "Hətta "maaş-təqaüdlər artacaq" xəbəri belə artıq qiymətlərin yüksəlməsinə səbəb olur. Ona görə də maaş və təqaüdləri artırmaqla paralel olaraq vergilər və gömrük dərəcələri də azaldılmalı, inflyasiyanı aşağı çəkəcək tədbirlər görülməlidir. Bu məsələ ilə bağlı aylar öncə təklif etdiyimiz məsələ aktualdır, həll edilməlidir. Ərzaq və dərmanların ƏDV-si 18 faizdən 2 faizə endirilməlidir. Ölkəyə gətirilən dərman vasitələri isə ümumən gömrük rüsumlarından tam azad edilməlidir. Bu yolla qiymət artımının qarşısını almaq, inflyasiyanı kəskin azaltmaq olar. Təbii ki, paralel olaraq 30 ildir müstəqillikdən bəri xroniki "xəstəliyə" çevrilmiş inhisarçılıq problemi də sistemli və iqtisadi yanaşmalarla həll edilməlidir".

**İsmayıl**

# Ukrayna Krımı da azad edə bilər

Qərbin dəstəyi gücləndikcə Rusiya geri çəkilir

**"Rusiya-Ukrayna müharibəsi 8 aydan çoxdur davam edir. Şimal qonşumuz ciddi uğur qazana bilmədi. Yalnız Xersonun işğalını vurğulaya bilərik. Lakin artıq rus qoşunları oranı da tərk edib. Rusiyanın 8 aylıq müharibəsinin yeganə nəticəsi olan Xerson da əlindən çıxıb".**

*Bunu "Şərq"ə açıqlamasında Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin rəhbəri, politoloq Samir Hümbətov deyib.*



Siyasi şərhçi bildirib ki, Rusiyanın zəifləmə prosesi surətlənib: "Kremlin İrandan ballistik raketlər almaq istədiyi barədə məlumatlar var. Bir müddət öncə 800-dən artıq dron almışdı. Bütün gedişat Rusiyanın müdafiə sənayesinin zəiflədiyindən xəbər verir. Ölkədə səfərbərliyin elan edilməsi də ciddi bir təsir göstərmədi. Rusiya ilhaq etdiyi Ukrayna ərazilərindən geri çəkilir. Həmçinin dövlətə qarşı sanksiyaların artırılma ehtimalı da çoxdur.

Ukraynaya Qərbdən hərbi, texniki yardım göstərilir. Strateji əhəmiyyətə malik Xersonun geri qaytarılması Krımın işğaldan qurtarılması yolunu asanlaşdırdı. Ukrayna Krımdakı hərbi, strateji obyektləri sıradan çıxardıqdan sonra prosesi surətləndirə bilər. Əlbəttə, Qərbin dəstəyinə ehtiyac duyur.

Əgər Qərb Ukraynaya yardımları davam etdirərsə, Krımı geri almaq üçün mümkün şərait yaranacaq. Bəzi məlumatlarda deyilir ki, Amerika rəsmiləri ilə Rusiya rəsmiləri arasında gizli danışıqlardan sonra Xerson qaytarılıb. Amma Rusiya oranı öz ərazisi kimi qəbul etmişdi. Belə halda danışıqlardan söhbət gedə bilməz. Xersondan qoşunların geri çəkilməsi Rusiyanın zəifləməsi ilə əlaqəlidir. Ukraynanın Krımı yarı hərbi, yarı da danışıqlar yolu ilə geri qaytarması mümkündür".

*Xatırladaq ki, Ukrayna Prezidenti Volodimir Zelenski Krımı Xerson istiqamətində başlayan hücumdan bir neçə saat sonra geri alacağına söz vermişdi. Xersonun geri alınması Krım yolunu da açır. Bu səbəbdən Xerson həm də "Krımın açarı" kimi qələmə verilir. Xersonun geri alınması işğal olunmuş digər şəhərlərin də azad ediləcəyinə dair ümidləri artırır.*

**Aygün Tahir**



## Mask: "Biz milyonlarla il yaşı olan yadplanetliləri tapacağıq"

**"Tesla"nın baş direktoru və "Twitter"in yeni sahibi İlon Mask G20 sammiti çərçivəsində keçirilən konfransda videobağlantı vasitəsilə çıxış edərək gələcəyə dair fikirlərini təqdim edib.**

Sahibkarın sözlərinə görə, o, gələcəkdə yerin dərinliklərində qazılmış tunellərdən istifadə etməklə tıxaclara qarşı mübarizənin reallaşacağını, raketlə Yer kürəsi ətrafında bir saatdan az vaxta dövrə vurulacağını və kosmosda yadplanetlilərlə təması görür. "Ola bilsin ki, biz orada milyonlarla il yaşı olan yadplanetliləri tapacağıq", - deyə milyarder bildirib.

Maskın sözlərinə görə, tıxacla mübarizə aparmaq üçün uçan avtomobillərdənsə yeraltı tunellər yaxşıdır.

"Çünki belə olarsa, avtomobillər başınıza düşməyəcək", - deyə o bildirib.

*Qeyd edək ki, Maskın videoçıxışı zamanı dinləyicilər onun yalnız üzünü və əllərini görüblər, ekranın qalan hissəsi qara olub. Sahibkar zəngə üç dəqiqə qalmış işığının kəsildiyini izah edib və enerji gələcəyi ilə bağlı müzakirələri şam işığında danışmaqda ironiya gördüyünü bildirib.*

# İran agenturası fəaliyyət istiqamətini dəyişib

Əhəd Məmmədli: "Bu saat İranın fəaliyyət istiqaməti Bakı kəndlərindən və cənub bölgəsindən çox Gəncəyə yönəlib"



**"İran 1979-cu il İnqilabından sonra, şiə topluluğu çox olan ölkələrdə mövqelərini bərkidərək, tərəfdarlarını toplamağa başladı".**

Bunu AĞ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədli "Şərq"ə açıqlamasında DTX-nın İran agenturasının yaratdığı casus şəbəkəsini ifşa etməsinə münasibət bildirərkən deyib.

O vurğulayıb ki, din pərdəsi altında aparılan təbliğatlardakı əsas məqsəd İran dövlətinə xidmət etməkdir: "Görünən odur ki, onlar kifayət qədər uğur əldə etməyi bacarıblar. Əsasən də Yaxın Şərqdə, Suriya, Livan və İraqda gedən müharibələrin nəticəsində İran bu ölkələri nəzarətə götürməyi bacardı. Bunu isə bəzən bilavasitə, bəzən də kənardan müdaxilə ilə reallaşdırdı.

Artıq İranın şiə xilalı var və bu xilala tam nəzarət etmək üçün təkcə Azərbaycan qalıb. Doğrudur, rəsmi Tehran Azərbaycana hərbi müdaxilə edə bilmir və burada proksi silahlı dəstələri yoxdur. Ancaq Azərbaycanda kifayət qədər beyni yuyulmuş və din, məzhəb təbliğatı altında olan kütlə var. Sözügedən agentura şəbəkəsi isə məscidlərdə və digər sahələrdə yayılmağa başlayıb".

"Məscidlərdən İrana bağlı molla və ruhani klanın kökü kəsilməlidir"

**Ə.Məmmədli onu da əlavə edib ki, Azərbaycanın 90-cı illərdəki çətin vəziyyətindən istifadə edən bir çox ölkə, burada öz agentuara şəbəkəsini böyütdü:** "İran da onlardan biridir. Müharibədən qalib çıxdıqdan sonra Azərbaycanın güclənməsi və Türkiyə ilə birgə hərəkət etməsi bir çox ölkələri narahat edir. Bu səbəblə də bizə qarşı olan təzyiqi daha açıq göstərirlər. Xüsusən də İran daha açıq təxribatlara əl atır.

Təbii ki, Azərbaycan da bunlara qarşı düzgün, hətta deyərdim, bir az gecikmiş addımlar atır. Bunların qarşısının alınması üçün isə məscidlərdən İrana bağlı molla və ruhani klanın kökü kəsilməlidir. Bu saat isə İranın fəaliyyət istiqaməti Bakı kəndlərindən və cənub bölgəsindən çox Gəncəyə yönəlib.

Azərbaycanın ikinci şəhərində belə bir rejimin cücərməməsi üçün SOS siqnalı verilməlidir. Çünki Azərbaycanın təhlükəsizliyi böyük zərbə altındadır. Ona görə də nə qədər ki, ölkəmizdə İranın proksi qruplaşmaları yoxdur, daha böyük əməliyyatlar aparmaq lazımdır. Biz İran şəbəkəsinə zərbələr endirməsək, Azərbaycan hərbi-siyasi baxımdan zəiflədiyi anda, onlar silahlı dəstələrlə cavab verəcəklər".

*Qeyd edək ki, Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) saytından bildirilib ki, İran xüsusi xidmət orqanlarının yaratdığı casus şəbəkəsi ifşa edilib. İran İslam Respublikası xüsusi xidmət orqanları nümayəndələrinin Azərbaycana qarşı həyata keçirdiyi kəşfiyyat-pozuculuq fəaliyyətinin qarşısının alınması, yaradılmış casus şəbəkəsinin ifşa olunması istiqamətində DTX tərəfindən kompleks əməliyyat-istintaq tədbirləri davam etdirilir.*

**Nihat Müzəffər**



# "Türkiyə heç bir zaman belə şantajlara boyun əyən deyil"

Ruslan Bəşirli: "Rəsmi Ankaranı siyasətindən döndərməyə çalışırlar"

**Dünən Türkiyənin İstanbul şəhərində yerli sakinlər, vətəndaşlarla yanaşı turist axını üçün nəzərdə tutulan İstiqlal prospektində partlayış olub. Baş verən terror aktı nəticəsində 6 nəfər həlak olub, yaralıların sayı 81 nəfərə çatıb. Hadisəni törədən suriyalı qadın artıq həbs edilib.**

Qeyd edək ki, partlayışın YPG və PYD terror qruplaşmaları tərəfindən həyata keçirildiyi ehtimal edilir.

Türkiyənin bölgədə terrora qarşı mübarizə aparan ən ciddi və yeganə dövlət olduğunu deyən "Avropa.info" saytının baş redaktoru Ruslan Bəşirli "Şərq"ə bildirib ki, rəsmi Ankaranın siyasi arenada apardığı layihələr bəzi qüvvələri narahat edir: "Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın siyasəti terrora qarşı ardıcıl əməliyyatların aparılması ilə diqqət çəkir. Onlar illərdir ki, PKK, İŞİD, PYD kimi qruplaşmalara qarşı döyüşməyə davam edirlər. Son illərdə isə terror aktları səngimişdi. Bu isə Türkiyənin ciddi əməliyyatlar aparmasından və ölkə daxilini, demək olar, təmizləməsindən irəli gəlirdi. Bir neçə il dayandıqdan sonra, yenidən terror hadisəsinin baş verməsi isə siyasi proseslərdən irəli gəlir. Son illərdə Türkiyənin Ukrayna-Rusiya savaşı ilə bağlı yürütdüyü sülh siyasəti, taxıl böhranını aradan qaldırmasında iştirakı və Rusiya qazının Avropaya ixracına verəcəyi töhfə kimi layihələr bəzi qüvvələri narahat edir.

Rəsmi Ankaranı siyasətindən döndərməyə çalışırlar. Digər tərəfdən Türkiyə Orta Asiyada da ciddi rol oynayır və türk dövlətlərini bir araya gətirir.

Türkiyənin Qarabağ münaqişəsinin həllində rolu və Mərkəzi Asiyaya doğru nüfuzunun getdikcə yayılması da dünya güclərinin xoşuna gəlmir. Ona görə də Ankaraya qarşı müəyyən təzyiqlər etməyə çalışırlar. Lakin Rəcəb Tayyib Ərdoğanın rəhbərliyində olan Türkiyə heç bir zaman belə şantajlara boyun əyən deyil.

Düşünürəm ki, bunun ardından Türkiyə İraqdakı və Suriyadakı antiterror əməliyyatlarını daha da genişləndəcək. Bu isə həm ölkə daxilində, həm də ölkədən kənarda terrorun kökünü kəsməyə hesablanıb".

**Nihat Müzəffər**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi**








# Dini təhlükəsizlik hər zaman diqqət mərkəzindədir

## Tolerantlıq tarixən xalqımızın həyat tərzi olub

**Azərbaycan milli və dini tolerantlığın ən mükəmməl nümunəsi kimi dünyada tanınır. Ölkəmizin tolerantlıq nümunəsi həm dövlət siyasətində əksini tapıb, eyni zamanda müxtəlif xalqlar, etnik qruplar arasındakı dostluq və birgə mehriban yaşayışda. Beynəlxalq Tolerantlıq Günü münasibətilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə dünən paytaxtda keçirilən "Azərbaycan: birgəyaşayış nümunəsi" mövzusunda konfrans da bunun növbəti təsdiqi idi.**

DQİDK, Mənəvi Dəyərlərin Təbliği Fondu, Azərbaycan İlahiyyat İnstitutu və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin rəhbərliyi, Milli Məclisin deputatları, Azərbaycanda fəaliyyət göstərən müsəlman və qeyri-müsəlman dini icmaların rəhbərləri və üzvlərinin iştirak etdikləri tədbiri giriş sözü ilə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov açıb. O, Azərbaycanda dövlət-din münasibətlərində həssas nəzarətlə bərabər, ölkədə dini etiqad azadlığı üçün yaradılan şərait, bütün dini konfessiyalara, ibadət yerlərinə göstərilən xüsusi qayğı, həmçinin digər dinlərin daşıyıcılarına münasibətdə tolerantlıq və birgəyaşayış vərdişlərinin önəmi barədə danışıb. DQİDK sədrinin müavini bildirib ki, Yaxın Şərqdəki proseslər göstərir ki, həmin bölgədə dini təhlükəsizlik məsələləri zamanında həll edilsəydi, bugünkü mənzərə yaşanmazdı. "Zamanında məzhəbçilik zəmində baş verən proseslər vətəndaş müharibəsi, dağıntılar və kütləvi insan qırğını ilə nəticələndi. Ona görə də müsəlman dünyası, o cümlədən Şərq ölkələri üçün dini təhlükəsizliyin təminatı olduqca vacib məsələdir. Azərbaycan da bu təhdidlərdən, bu proseslərdən sığortalanmayıb. Çünki dini mövqedən Azərbaycana yönləndirilən təhdidlər, təsirlər bir an belə səngimir. Ona görə də biz ölkəmizdə dini təhlükəsizlik məsələlərinə hər zaman önəm veririk və artıq biz bu ənənəni ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş siyasətin tərkib hissəsi kimi qəbul edərək diqqət mərkəzində saxlayırıq. Ümumiyyətlə, bizim ölkəmizin din siyasətinə nəzər saldıqda iki başlıca vəzifə qarşımızda durur. Dini etiqad, din azadlığının təminatı dövlətimizin din siyasəti üçün prioritet məsələdir. Ona görə də bütün dini konfessiyaların nümayəndələrinə dövlət tərəfindən kifayət qədər diqqət və qayğı göstərilir. İkinci bir istiqamət dini təhlükəsizliyin təminatıdır. Bu iki məsələ bir-birinə o qədər bağlıdır ki, birində hər hansı gərginlik olarsa, digərinə təsir göstərir. Ona görə də dini təhlükəsizliyin təminatı elə din azadlığının təminatı üçün başlıca bir elementdir". Komitə sədrinin müavini xaricdə dini təhsil almış din xadimlərinin Azərbaycanda müxtəlif dini vəzifələrdə çalışması məsələsinə də münasibət bildirib və qeyd edib ki, qanuna əsasən milli kadrlara üstünlük verilir: "Eyni zamanda qanunda xaricdə dini təhsil almış şəxslərin din xadimi kimi fəaliyyət göstərməsinə müəyyən məhdudiyyət var, ancaq istisna hallarda xüsusi yoxlamadan keçdikdən sonra müsbət rəy olduğu halda onları din xadimi kimi təyin edirik". Sədr müavininin sözlərinə görə, təcrübə göstərir ki, xaricdə dini təhsil almaq özünü doğrultmur. "Çünki həmin ölkələrdə verilən təhsil onların siyasətinə xidmət edir, orada təhsil alan insanlar da istər-istəməz yad dini ideologiyanın təsirinə məruz qalırlar. Artıq 2018-ci ildən Azərbaycanda İlahiyyat Universiteti fəaliyyət göstərir və bizim milli dini kadrlarımız formalaşır", - deyə o əlavə edib. Sədr müavini həmçinin əlavə edib ki, Azərbaycanda dini təhlükəsizlik məsələləri kifayət qədər diqqət mərkəzində saxlanılır. Lazım gəldikcə zəruri tədbirlər keçiriləcək.

Sonra parlamentin deputatları Hikmət Babaoğlu və Nəsib Məhəmməliyev, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov çıxışları dinlənilib. Tədbirdə eləcə də Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi Aleksiy Nikonorov, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Roma Katolik Kilsəsinin Azərbaycandakı ordinarisi Vladimir Fekete, Avropa yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili Azərbaycanda müxtəlif dinlərə məxsus ibadətgahların, dini tədris müəssisələrinin sərbəst şəkildə fəaliyyət göstərməsi, dini bayramların yüksək səviyyədə qeyd olunması istiqamətində müxtəlif dini konfessiya nümayəndələrinə dövlət tərəfindən lazımi dəstək verilməsinin Azərbaycanın uğurlu multikulturalizm və tolerantlıq modelinin tərkib hissəsini təşkil etdiyini vurğulayıblar. Eyni zamanda, digər konfessiyaların nümayəndələri kimi xristianlara öz etnik-dini xüsusiyyətlərini və adət-ənənələrini qoruyub yaşatmağa görə yaradılan şəraitdən məmnunluqlarını dilə gətiriblər. Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi Aleksiy Nikonorov bildirib ki, tolerantlıq başqalarına hörmət etmək qabiliyyətidir. Azərbaycan tolerantlığın modelidir. Burada müxtəlif dinlərdən olan insanlar qarşılıqlı hörmət şəraitində yaşayırlar. Dünyada baş verən qlobal hadisələrdən bəhs edən A.Nikonorov radikal islamın mənfi təzahürlərindən təəssüflə danışıb. Bizim vəzifəmiz Azərbaycanın necə tolerant ölkə olduğunu, burada müxtəlif dinlərdən olan insanların birgəyaşayışını dünyada təbliğ etmək və yaymaqdır. Konfransda eyni zamanda, "Tolerantlıq nümunəsi" adlı qısametrajlı film, "Biz birlikdə güclüyük" və "Vəhdət dəyərimizdir" adlı videoçarxlar nümayiş etdirilib. Tədbirdə Azərbaycanda formalaşmış dini tolerantlıq mühitinin qorunub saxlanılması və onun daha da möhkəmləndirilməsi, eyni zamanda, bu sahədə əldə edilən nailiyyətlərin beynəlxalq ictimaiyyətə təbliği barədə fikir mübadiləsi aparılıb.

> "Heç bir azərbaycanlı qeyri-islam abidələrinə qarşı hörmətsizlik etməyib. Azərbaycan tarixində belə bir nümunə tapmaq mümkün deyil"

**Konfrans barədə fikirlərini "Şərq"lə bölüşən Qarabağ Seyid Ocaqlarının təmsilçisi, şərqşünas Seyid Camal Əzimbəyli qeyd etdi ki, bu səpkili tədbirlər ölkəmizin multikultural dəyərlərini, milli və dini tolerantlığını dünyaya nümayiş etdirmək imkanıdır:**

- Azərbaycan multikulturalizminin, dini tolerantlığının ən bariz nümunəsi cənab Prezident İlham Əliyev, həmçinin Heydər Əliyev Fondunun prezidenti, ölkəmizin birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətidir. Bütün dünya görür ki, cənab Prezident də, Mehriban xanım da islami dəyərlərə hansı hörmətlə yanaşırlarsa, digər dinlərə və mədəniyyətlərə də eyni dərəcədə hörmət edirlər, hər bir etnik qrupun, qeyri-islam mədəniyyəti və dini abidələrinin qorunmasına qayğı göstərirlər. Bu həssaslıq gözəl Qarabağımız düşməndən azad edildikdə özünü göstərdi. Qarabağda olan, düşmən tərəfindən dağıdılmış, viran qoyulmuş dini abidələrin bərpasına vaxt itirilmədən başlanıldı. Məscidlərə hansı münasibət göstərildisə, alban məbədlərinə, kilsələrə, digər ibadət yerlərinə də eyni münasibət göstərildi. Tolerantlıq tarixən xalqımızın həyat tərzi olub. Heç bir azərbaycanlı qeyri-islam abidələrinə qarşı hörmətsizlik etməyib. Azərbaycan tarixində belə bir nümunə tapmaq mümkün deyil. Amma işğaldan azad edilmiş Qarabağa səfər edən dünya ictimaiyyəti nümayəndələri də gördü ki, mənfur qonşularımız 30 ilə yaxın bir müddətdə dini ibadət yerlərini necə təhqir edib, abidələrə divan tutublar. Lakin Azərbaycan dövləti bütün dini və tarixi abidələri bərpa etməkdə qərarlıdır və bununla da tolerantlığın daha bir nümunəsini göstərir. Konfransda səslənən çıxışlarda da fərqli dini konfessiyaların nümayəndələri ölkəmizdə tolerantlıq mühitinin möhkəm əsaslara söykəndiyini dilə gətirdilər. Üzərimizə düşən vəzifə malik olduğumuz tolerantlığı, multikultural dəyərləri bacardıqca daha çox təbliğ etməkdir.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub




# Ağırlaşma ola bilər

## Şəkərli diabet artıq sərhəd tanımır

**“Uşaqlıq və yeniyetməlik dövründə daha çox tip 1 şəkərli diabetə rast gəlinir”. Bu sözləri Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, endokrinoloq Səbinə Məşədiyeva-Bayramova deyib.**

O bildirib ki, bu tip şəkərli diabet poligen multifaktorlu xəstəlikdir. Əsasında insulinin mütləq çatışmazlığına gətirib çıxaran mədəaltı vəzin ?-hüceyrələrinin immunasıllı və ya idiopatik destruksiyası durur: ”Uşaq yaşlarında tip 2 şəkərli diabetə də rast gəlinir. Onun rastgəlmə tezliyi bu yaş dövründə əlbəttə ki, tip 1 şəkərli diabetə nisbətən az olur. Şəkərli diabet tip 2 əsasən insulinə rezistentlik və nisbi insulin çatmazlığı ilə yaranan karbohidrat mübadiləsinin pozulmasıdır.

Xəstəliyin hər iki tipinin yaranmasında irsi meylliliyin böyük rolu var. Tip 1 şəkərli diabeti yaradan patoloji genlər 6-cı xromosomun qısa çiynində yerləşir. Tip 2 şəkərli diabetə meylliliyi yaradan genlər 11-ci xromosomla bağlıdır. Əlbəttə, xəstəliyin başlanması üçün hər halda müxtəlif faktorlar lazımdır. Onlar təkan rolunu oynayır. Şəkərli diabet tip 1 üçün təkanverici faktor kimi virus infeksiyaları durur. Bu, müxtəlif viruslar ola bilər. Şəkərli diabet tip 2 üçün təkanverici faktor kimi artıq çəki, piylənmə, stress və s”.

Ekspert vurğulayıb ki, xəstəliyin hər iki tipinin əlamətləri eyni ola bilər: ”Ağızda quruluq, susuzluq, tez-tez sidiyə getmə, ümumi zəiflik, yorğunluq ola bilər. Tip 1 şəkərli diabet zamanı əlavə olaraq arıqlama, aclıq hissi, əsəbilik, yuxusuzluq ola bilər. Tip 2 şəkərli diabet zamanı əlavə kökəlmə, piylənmə, gün ərzində bir neçə dəfə səbəbsiz güclü aclıq hissi ola bilər. Tip 1 şəkərli diabet diaqnozu gec qoyulanda (həkimə müraciət gecikəndə) xəstələrdə ketoasidotik vəziyyət və ketoasidotik koma yarana bilər. Ketoasidotik vəziyyət zamanı bütün deyilən şikayətlər kəskinləşir və əlavə olaraq ürəkbulanma, qusma, qarın nahiyəsində kəskin ağrılar, nəfəsdən aseton iyi gəlir, ağır formalarda huşun itməsi olur. Müalicə gecikdiyi halda tip 2 şəkərli diabetdən əziyyət çəkənlərdə piylənmə dərəcəsi arta bilər”.

**Pediatr-endokrinoloq Leyla Sultanova “Şərq”ə açıqlamasında şəkərli diabet tip 1-in qarşısı alınmayan bir xəstəlik olduğunu deyib. Onun sözlərinə görə, bəzən valideynlər düşünür ki, uşaq şəkərli qidaları çox yediyi, yaxud artıq çəkili olduğu üçün bu xəstəliyə tutulur:** ”Halbuki tip 1-in bütün bunlarla heç bir əlaqəsi yoxdur.

## Uşaqların ölçülü yeməklərinə diqqət yetirmək lazımdır



Tip diabet insulindən asılı diabet də olaraq tanınır ki, bədəndə insulinin olmaması ilə meydana çıxan xəstəlikdir. Şəkərli diabet çox su içmə, çox sidiyə çıxma, gecə sidik qaçırma və çəki itirmə ilə təzahür edən xəstəlikdir. Vaxtında müalicə edilmədikdə koma və ölümlə nəticələnə bilər. Müalicəsində isə üç ana ünsür var ki, bütün bu prosedurlar birlikdə aparılmalıdır. İnsulini yerinə qoyma, bəslənmə və karbohidrat qəbulu və idman müalicəsi. Şəkərin ölçülməsi, insulinin müəyyən olunmuş nahiyələrə vurulması, şəkər yüksəkliyi və düşüklüyü anında ilk yardım kimi müddəaları mənimsəyən ailələr həm şəkərlə yaşamağı öyrənir, həm də sözügedən xəstəliyin ağırlaşmalarından qorunur”.

*Pediatrın sözlərinə görə, mədəaltı vəzin ifraz etdiyi insulin qanda şəkər yüksəlməsin deyə şəkəri hüceyrələrə çatdıran bir vasitədir.* İnsulin az olduqda isə qəbul edilən şəkər hüceyrələrə getmir və nəticədə qanda şəkərin faizi yüksəlir. Bunun qarşısını almaq üçün tip xəstələrə müntəzəm olaraq insulin iynəsi vurulur ki, mədəaltı vəz öz funksiyasını yerinə yetirə bilsin. Bu baxımdan insulin həyati əhəmiyyətli bir hormondur:

”Digər bir vacib məqam isə xəstələrin qidasına diqqət etməsidir. Karbohidrat sayımı vasitəsilə uşaqlar istədikləri hər qidanı yeyə bilərlər. Təbii ki, valideyn nəzarəti mütləqdir. İdman isə bədənin insulin ehtiyacını azaltdığı üçün şəkər xəstələri üçün vacib müalicə metodudur. Bu zaman qan şəkəri düşür və bədən indeksi normal vəziyyətdə qalır. Sadəcə olaraq ackən və yeməkdən dərhal sonra idman etmək düzgün deyil. Şəkərli diabet diaqnozu qoyulan insanlarda ən təhlükəli vəziyyət xəstənin hipoqlesemiyaya düşməsidir. Bu zaman komaya düşmə təhlükəsi var deyə qan şəkərinin 75 mq/dl dən aşağı düşməsi təhlükəlidir. Gündəlik şəkər yüksəlməsi o anda zərər verməsə də uzun zaman sonra zərərləri ortaya çıxır. Ancaq şəkərin ani düşməsi titrəmə, soyuq tərləmə, bayılma hətta koma ilə nəticələnə bilər. 75-dən aşağı düşən şəkərə o dəqiqə müdaxilə etmək lazımdır. Mütləq şəkəri yüksəltmək üçün maye şəklində şəkərlərdən istifadə etməliyik. *(Meyvə suyu, suda həll edilmiş şəkər tozu, suda həll edilmiş bal, mürəbbə v.s)* Tip 1 diabetin uzun dönəm göz, böyrək, damar və sinirləri sıradan çıxaran ağırlaşmalarını bilirik. Bu ağırlaşmaların vaxtında qarşısını almaq üçün ölçülü yeməliyik, insulinləri vurmalıyıq və 3 ayda bir Endokrinologiya üzrə mütəxəssis tərəfindən müayinə edilməliyik”.

**Şəymən**

---

# Bakıda köhnə avtomobillər ucuzlaşıb

## Yeni avtomobillərin qiymətində artım yoxdur

**Ötən ay Bakının avtomobil bazarında sentyabr ayı ilə müqayisədə qiymətlərdə kəskin dəyişiklik müşahidə edilməyib.**

**Bu barədə “Report”a açıqlamasında ”Azərbaycan Avtomobil Dilerləri Assosiasiyası” (AADA) İctimai Birliyinin nümayəndəsi, avtomobil bazarı üzrə ekspert Eyyub Əliyev deyib.**

O, ay ərzində bəzi avtomobil modellərinin ucuzlaşdığını bildirib:

”Yeni avtomobillərin qiymətində artım yoxdur. Hətta bəzi avtomobil salonlarında kampaniyalar təklif edilir, avtomobil satışı və servis qiymətlərində endirimlər olur. Elektromobillərlə bağlı gömrük rüsumu ləğv edildiyinə görə yəqin ki, gələn aydan bu avtomobillər də ucuzlaşacaq.

Mühərrik həcmi böyük olan ”ikinci əl” avtomobillərin qiyməti enib. Məsələn, əvvəllər mühərrik həcmi 4 400 kubsantimetr, ili 2007-ci il olan avtomobillərin qiyməti 25 min manata idisə, indi onlar 22-23 min manata satılır. 2006, 2007, 2008-ci illərdə istehsal olunmuş ekonom klass avtomobillərin də qiymətində bir qədər azalmalar var. Amma 2012-2013-cü illərdə istehsal olunmuş ”ikinci əl” avtomobillərin qiymətində 500-1 000 manat arası artım var. Ümumi götürsək, ötən ay ”ikinci əl” avtomobillərin ucuzlaşdığını deyə bilərik”.

E.Əliyev ötən ay avtomobil satışlarının qənaətbəxş olduğunu qeyd edib:

”Sentyabr ayı ilə müqayisədə oktyabrda təzə avtomobillərin satış həcmi artıb. ”İkinci əl” avtomobil bazarında isə bir az durğunluq yaranıb. ”İkinci əl” avtomobil almaq istəyənlər əsasən qiyməti 10-20 min manat olan avtomobillərə üstünlük verir. Həmin şəxslər elektromobil və hibridlərə güzəştlərin tətbiq edildiyinə gördükcə, belə güzəştlərin digər avtomobil modellərinə də şamil ediləcəyini düşünürlər. Ona görə də maşın almaq fikrindən müvəqqəti daşınır və gözləmə mövqeyi tuturlar. Digər tərəfdən, ”Aİ-95” markalı benzinin qiymətinin yüksək olması mühərrik həcmi böyük olan avtomobillərin satışına mənfi təsir edir. Əvvəllər ”ikinci əl” avtomobil bazarında Rusiyada istehsal olunmuş avtomobillərin satışı üstünlük təşkil edirdi. İndi Rusiyada baş verən məlum hadisələr fonunda vətəndaşlarımız Rusiyada istehsal olunan avtomobilləri almaqdan ehtiyat edirlər. Onlar düşünür ki, bu avtomobilləri alsalar, gələcəkdə ehtiyat hissələrini tapmaqda çətinlik çəkə bilərlər. Bu səbəblərə görə, ”ikinci əl” avtomobil bazarında satışlar bir qədər ləngiyir. Ümumilikdə isə bazarda vəziyyət yaxşıdır”.



Müsahibimizin sözlərinə görə, artıq alıcılar köhnə avtomobilləri almaqdan imtina edir:

”Sevindirici haldır ki, vətəndaşlarımız artıq maariflənib və ölkəyə gətirilən ”ikinci əl” avtomobillərin qəzalı, nasaz avtomobillər olduğunu bilirlər. Nəticədə onlardan imtina edir və yeni avtomobillərə üz tuturlar. Həmin köhnə avtomobillərin satışı azaldığına görə, qarşıdakı aylarda onların ölkəyə gətitirlməsinin də azaldığını görəcəyik.

Bizdə krossoverlərə tələbat daha çoxdur. Nədənsə, biz hündür maşını daha sanballı hesab edirik. Qiyməti 30-50 min manat arasında olan avtomobillərdən ən çox satılanları krossoverlərdir. Ekonom klass avtomobillər arasında isə heçbeklərə daha çox üstünlük verilir. Mühərrik həcmi 1 400, 1 500, 1 600 kubsantimetr olan avtomobillərə də tələbat var. Bunları sürənlər əsasən taksi fəaliyyəti göstərənlərdir”.

E.Əliyev əlavə edib ki, müştərilər avtomobil seçərkən onun ehtiyat hissəsinin tez tapılan olması, baha olmaması, həmin avtomobilin servis mərkəzindən kənarda ustasının tapılması və servis mərkəzlərində yüksək səviyyədə xidmət göstərilməsi kimi məsələləri göz önündə tuturlar.

# Sürücülərin narahatçılığına əsas yoxdur

## Nəqliyyat vasitələrinin texniki baxışdan keçirilməsi qaydasına ciddi dəyişiklik olmayıb



“Qanuna görə, kağız sığorta şəhadətnaməsi mütləq idi. Bundan sonra isə elektron sığorta şəhadətnaməsində hər iki sığorta forması əks olunacaq”

**Azərbaycanda nəqliyyat vasitələrinin texniki baxışdan keçirilməsi qaydasına dəyişiklik edilib.**

**Bu, Prezident İlham Əliyevin təsdiqlədiyi ”Yol hərəkəti haqqında” qanuna dəyişiklik edilməsi barədə qanunda əksini tapıb.**

Qanuna əlavə edilmiş yeni maddəyə əsasən, avtonəqliyyat vasitələri ”İcbari sığortalar haqqında” qanuna uyğun olaraq sahiblərinin mülki məsuliyyəti icbari qaydada sığortalandıqda, sərnişin daşımaları xidmətini həyata keçirən avtonəqliyyat vasitələrinə münasibətdə isə habelə sərnişinlərinin (şəhərdaxili və qəsəbədaxili daşınan sərnişinlər istisna olmaqla) fərdi qəza sığortası həyata keçirildikdə texniki baxışa buraxılacaq. Bu qayda müvafiq icra sığorta müqaviləsinin mövcudluğu ”İcbari sığortalar haqqında” qanunda nəzərdə tutulan elektron informasiya sistemi vasitəsilə yoxlanılacaq.

**Hüquqşünas, ekspert Ərşad Hüseynov ”Şərq”ə açıqlamasında prosesdə yeniliyin olmadığını bildirib. Onun sözlərinə görə, sürücü və avtomobil sahibləri dəyişiklikdən narahat olmamalıdırlar:** ”Dəyişikliyin praktiki əhəmiyyəti yoxdur. Bu, sırf texniki prosesdir. Burada söhbət ”İcbari sığortalar haqqında” qanunla ”Yol hərəkəti haqqında” qanunun bir-birinə uyğunlaşdırılmasından gedir.

İcbari tibbi sığorta haqqında qanunda iki sığorta növü var: nəqliyyat vasitəsi sahibinin mülki məsuliyyətinin icbari sığortası və sərnişindaşımalarda fərdi qəza sığortası.

Yəni ki, kommersiya məqsədli sərnişin daşıyan nəqliyyat vasitələrinin sahibləri sərnişinlərinin fərdi qəza sığortasından da keçməlidir. Sərnişinlərin icbari fərdi qəza sığortası Azərbaycan Respublikasının ərazisində, həmçinin xarici ölkələrə və ya xarici ölkələrdən qanunda müəyyən edilmiş qaydada sərnişindaşıma xidmətlərini həyata keçirən zaman tətbiq olunur. Bu zaman mülkiyyətində nəqliyyat vasitəsi olan və ya belə nəqliyyat vasitəsinə faktiki sahibliyi həyata keçirən, həmçinin onu icarəyə götürmüş, yaxud digər qanuni əsaslarla istismar edən fiziki və hüquqi şəxslər nəqliyyat vasitələrinin sahibləri hesab olunurlar.

İndiyə qədər də sürürcülərdən hər iki sığorta tələb olunurdu. Sadəcə, budəfəki dəyişiklikdən sonra fərdi qəza sığortasını elektron informasiya sistemi vasitəsi ilə yoxlayacaqlar. Qanuna görə, kağız sığorta şəhadətnaməsi mütləq idi. Bundan sonra isə elektron sığorta şəhadətnaməsində hər iki sığorta forması əks olunacaq. Yəni bu günə qədər praktiki mövcud olan bir formatı qanuna yazaraq rəsmiləşdirdilər”.

**Şəymən**



# Şagirdlərin yemək bişirdiyi məktəbin rəhbərliyinə töhmət verildi

**Paytaxtdakı 48 nömrəli tam orta məktəbdə şagirdlərin yemək hazırlaması ilə bağlı yayılan videogörüntü ilə əlaqədar Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən araşdırma aparılıb.**

Bakı Şəhəri üzrə Təhsil İdarəsindən bildirilib ki, araşdırma nəticəsində vəzifə funksiyalarını yerinə yetirərkən məsuliyyətsizliyə yol verdiklərinə görə 48 nömrəli tam orta məktəbin direktoru Aynurə Bağırovaya Azərbaycan Respublikası Əmək Məcəlləsinin 186-cı maddəsinin 2-ci hissəsinin ”b” bəndinə əsasən, sonuncu xəbərdarlıqla şiddətli töhmət, uşaqlarla məktəbdənkənar və sinifdənxaric tərbiyə işi üzrə təşkilatçı Solmaz Çobanovaya isə Azərbaycan Respublikası Əmək Məcəlləsinin 186-cı maddəsinin 2-ci hissəsinin ”a” bəndinə əsasən, töhmət verilib.

*Qeyd edək ki, müvafiq videogörüntü ötən tədris ilində (16 may 2022-ci il) çəkilib. Həmin vaxt məktəb rəhbərliyi tərəfindən sinif rəhbəri, müəllim və məktəb psixoloqu barəsində intizam tənbeh tədbiri görülüb.*



# Bakıda bahalı mənzillərə tələbat xeyli azalıb

## Mənzil bazarında təklif yüksək olsa da tələb aşağı olaraq qalmaqdadır

**Oktyabr ayında Bakıda mənzil bazarında qiymət artımları xeyli səngiyib. Xüsusən, daha bahalı mənzillərə əvəlki aylardan fərqli olaraq tələbin azalması müşahidə olunub.**

Bu barədə Trend-ə noyabrın 14-də İqtisadi və Sosial İnkişaf Mərkəzindən (CESD) məlumat verilib.

Mərkəzin keçirdiyi monitorinqə əsasən, qiyməti 150 min manatadək olan mənzillərin qiymətində 2 faiz artım qeydə alınıb. 150-250 min manat qiymət aralığında təklif olunan mənzillər 1 faiz dəyər qazanıb.

Əvvəlki aylardan fərqli olaraq oktyabr ayında daha bahalı mənzillərin qiyməti dəyişməyib. Mənzil bazarında təklif yüksək olsa da tələb aşağı olaraq qalmaqdadır.

Monitorinqlər göstərir ki, oktyabr ayında əvvəlki aylardan fərqli olaraq MDB dövlətlərindən gələnlərin mənzillərə tələbi azalıb. Bu da əvvəlki aylarda müşahidə edilən yüksək qiymət artımlarının yavaşımasına səbəb olub.

# Bir çox məktəblərdə kompüter problemi var

## Ona görə summativ qiymətləndirmələrin rəqəmsal təşkilini bütün təhsil ocaqlarında tətbiq etmək mümkün olmayacaq

**Cari tədris ilində ümumtəhsil məktəblərində kiçik summativ qiymətləndirmələrin rəqəmsal təşkilinə başlanılıb. Elm və Təhsil Nazirliyinin məlumatına görə, rəqəmsal məktəbdaxili qiymətləndirmə şagirdlərin rəqəmsal bilik və bacarıqlarının artırılması, qiymətləndirmə vasitələrinin hazırlanmasında və yoxlanılmasında vaxta qənaət, texnologiyanın təklif etdiyi yeni məzmun və formalı qiymətləndirmə üsullarından istifadə və kağız sərfiyyatının minimuma endirilməsi məqsədilə həyata keçirilir.**



Ümumi təhsil müəssisələri məktəbdaxili qiymətləndirməni kompüter avadanlıqları və internet təminatı imkan verdiyi təqdirdə rəqəmsallaşdıra bilərlər. Sözügedən proseslə bağlı ölkə üzrə bütün ümumi təhsil müəssisələrinə müvafiq təlimatlar göndərilib. Qeyd edilir ki, məktəbdaxili qiymətləndirmənin rəqəmsallaşdırılması prosesinin tətbiqinə ötən tədris ilindən pilot olaraq başlanılıb.

**Kiçik summativ qiymətləndirmənin rəqəmsal təşkili barədə ”Şərq”ə danışan Bərdə rayonu, Qazaxlar kənd tam orta məktəbinin direktoru Elşən Ramizoğlu qeyd etdi ki, ideya müsbət olsa da, tətbiqdə problemlər yaşanacağı labüddür:**

- Öncə bunu deyim ki, summativ qiymətləndirmənin rəqəmsal təskili gözəl ideyadır, çünki şagirdlərin qiymətləndirilməsi rəqəmsal həyata keçirilir, nəticədə kağız və zaman problemi azalır, həmçinin müəllimlərin də kağız üzərində qiymətləndirmə aparmaq kimi bir yükü azalır. Ancaq problem nədədir, bir çox məktəblərdə kompüter problemi var, bütün sinifləri rəqəmsal qiymətləndirməyə keçirmək texniki baxımdan mümkün deyil, hətta elə yerlər var, orada internet problemi yaşanır. Bu problem qaldığı müddətdə rəqəmsal qiymətləndirməni bütün təhsil müəssisələrində tətbiq etmək mümkün olmayacaq. Hətta fikirləşmək olmaz ki, bu məsələ yaxın günlərdə həllini tapacaq. Xeyr, bu, uzun sürən prosesdir. Qeyd etdiyim kimi, bu tətbiqə ehtiyac var, müəllimi kağızlarla yükləmək doğru deyil.

**Məlahət Rzayeva**

# Yuxudan oyanan kimi

## 3 əlamət -beyinə qan getmədiyini göstərə bilər



**İnsanların çoxu yuxudan oyanandan sonra bəzi oxşar əlamətləri hiss edir.**

**"Medicina" xəbər verir ki, alimlər sağlamlıqda olan problemlərlə demensiya və Alsgeymer kimi beyin xəstəlikləri arasında əlaqəni tapıb.**

Yuxuda apnoe-tənəffüs dayanması keçirənlərdə beyin neyronları ciddi zərər görür.

Demensiya əslində ümumi termindir. Onun altında yaddaş zəifləməsi, düşünmə qabiliyyətinin düşməsi, düşüncənin dumanlanması birləşib.

Zamanla bunlar dərinləşərək qocalıq əqli geriliyinə səbəb olur.

Nevroloq Aleksandra Alexina alimlərin siçanlar üzərində apardıqları tədqiqatdan danışıb.

"Onlar siçanlarda süni olaraq yuxu apnoesi yaradıblar və nəticələr göstərib ki, siçanlarda Alsgeymer xəstəliyinin patoloji dəyişiklikləri kəskinləşib.

Bu bir daha onu göstərib ki, beynin hipoksiyası neyronların degenerasiyasını yaradır, bu da demensiya üçün xarakterikdir.

Hazırda insanlar üzərində oksigen aclığı ilə koqnitiv pozuntular arasında əlaqə sınanır.

Təəssüf ki, çox insanlar yuxuda apnoe - yəni nəfəsin bir neçə saniyəlik kəsilməsini bilmir, bilsə də diaqnoz olunmur və müalicə edilmir.

Hər gün və çox möhkəm xoruldayanlarda sakit lal tənəffüs dayanması baş verir.

Alimlər bildirir ki, əgər səhər yuxudan oyanan kimi bu əlamətləri hiss edirsizsə, sizdə yuxuda oksigen hipoksiyası olub:

- Çox quru, ağrılı boğaz, sanki diliniz ağzınızda quruyub
- Səhərlər baş ağrısı
- Qalxan kimi başgicəllənmə

# Dünyaya döyüşçü kimi gələn 4 bürc

## Onlar əyilməyi, məğlubiyyəti sevmirlər



**"Şərq" qəzeti haqsızlığın olduğu yerdə heç vaxt susmayan və çox güclü olan 4 bürcü sizin üçün araşdırdıq. Sözügedən bu 4 bürcün xarakterində əsla geri çəkilmək yoxdur. Onlar ən çətin savaşlar qarşısında belə mübarizəni dayandırmırlar. Bəs dünyaya döyüşçü kimi gələn bu 4 bürc hansılardır?**

**Şir bürcu**

Şirlər ən güclü bürclərin arasında ilk sırada yer alırlar. Onlar məğlubiyyəti sevmirlər və haqsızlıq qarşısında insanları ayağa qaldıracaq bir gücə sahibdirlər. Digər tərəfdən şirlər həyatdakı çətinlikləri dəf edib, uğur qazanmağı bacarırlar. Onlar nə qədər çox çətinlik çəksə, bir o qədər də əzmkarlıq nümayiş etdirirlər. Tək yaşamağı sevən şirlər inandıqları hər şey üçün vuruşmağa hazırdırlar.

**Oğlaq bürcü**

Səbirləri ilə tanınan oğlaqların əsas güc mənbəyi də səbirli davranmalarıdır. Onlar problemləri sakit qarşılayar və planla hərəkət edərlər. Nələri yaşayacaqlarını hesablayaraq irəliləyən oğlaqlar üçün ümid çox vacibdir. Bu səbəblə də daxillərindəki gücdən və çətinlikdən sonra gələcək rahatlıqdan imtina etmirlər.

**Qız bürcü**

Plan və qanunları sevdikləri üçün qızlar hər işi özləri həll edirlər. Onlar dəyər verdikləri hər şey üçün gözlərini belə qırpmadan vuruşmağa hazırdırlar. Asan əldən düşməyən qızların ən həssas nöqtələri sevdikləridir. Ancaq onların qarşısında belə əzilib, geri çəkilmirlər.

**Balıq bürcü**

Xəyallarına düşkün olan balıqlar onları yerinə yetirmək üçün əlindən gələn hər şeyi edirlər. Duyğusal, romantik olsalar da tək qaldıqları zaman bunu heç kəsə hiss etdirməzlər. Çünki onlar döyüşməyi sevirlər və rahatlığa çox önəm verirlər. Onlar ağlasalar da bunu heç kəsə bildirməz və yollarına prins və prinssesa kimi davam edərlər. Əsla əyilməyi sevməyən balıqlar, baş əysələr taclarının düşəcəyini fikirləşirlər.

**Nihat Müzəffər**



Həmayil Əhmədqızı

**Gözləyirəm, bəlkə gələ, gəlmədi**

Tumurcuqdum, qaranlıqda qalmışdım,
Vurnuxurdum, necə çıxım, qurtulum?
Çatlaq verdim, qönçələndim, gül oldum,
Günəşlənib vərəq-vərəq açıldım.

Bahar gəldi, bağ-bağçalar gül açdı,
Ömür gülüm o güllərə qovuşdu.
Gül ömrümə elə gözəl yaraşdı,
O yaraşıq itkin düşüb, tapmıram.

Payız gəldi, gül-çiçəklər soluxdu,
Gülün dərdi yarpaqları saraltdı.
Gülsüz gülün yarpaqları dözməyib,
Xəzan olub torpaqlara qarışdı.

Gül kolları çılpaqlanıb qalmışdı,
Şaxta vurub, buz bağlayıb donmuşdu.
Baxammırdım o halına kolların,
Onlar orda, mən də burda donmuşdum.

Aylar keçdi, qış yerini yaz aldı,
Çılpaq kollar yarpaqlayıb gül açdı.
Mənim yazım gərən harda qalıbdı?
Gözləyirəm, bəlkə, gələ, gəlmədi.

**İki yerə bölünməkdən yoruldum**

Bütöv idim, bölünmüşəm ikiyə,
Ağlım küsüb ürəyimdən ayrıldı.
Ürək yazda qaldı, bizlə gəlmədi,
Ağlım mənlə qışa gəldi, qalmadı.

Ağlım qışın boranında, qarında,
Ürək yazın gül-çiçəkli bağında.
Yazıq canım iki yerə bölündü,
Heç bilmirəm, bahardayam, qışdayam?

Ömrüm boyu sən ürəkdən çəkmişəm,
Nə istədin, mən ağılsız etmişəm.
Mən çəkdikcə sən çəkdirdin, dözmüşəm,
İndi səndən inciyimmi, küsümmü?

Bu dünyaya birgə gəldik ikimiz,
O dünyaya birgə gedəcəyik biz.
İncidəndə, ağrıdanda canımı,
O ağrını qoşa çəkdik ikimiz.

Ağıl mənim sonra gəlib ömrümə,
Qorxuram ki, bir gün məni tərk edə.
Əl açıram, yalvarıram Rəbbimə,
Canımı yox, tək ağlımı qorusun.

Son sözümdür, ikisi də eşitsin,
Ağıl desin, ürək onu dinləsin.
Bir-birindən inciməsin, küsməsin
İki yerə bölünməkdən yoruldum.

**Bilmirəm, bilmirəm**

Yollarımız bağlı qalıb,
Niyə, bilmirəm, bilmirəm.
Elimdən, obamdan xəbər
Ala bilmirəm, bilmirəm.

Babakəri duman alıb,
Görə bilmirəm, bilmirəm.
Gözləri yollarda qalıb,
Gedə bilmirəm, bilmirəm.

Kəhərim yəhərli qalıb,
Minə bilmirəm, bilmirəm.
Sazımı köklədim, qaldı,
Çala bilmirəm, bilmirəm.

Ürəyimi dərd-qəm alıb,
Ata bilmirəm, bilmirəm.
Sənə tərəf yüyürürəm,
Çata bilmirəm, bilmirəm.

Gözlərim səni axtarır,
Görə bilmirəm, bilmirəm.
Eşitdim, məndən küsmüsən,
Niyə bilmirəm, bilmirəm.

Bu dünyanın işlərini
Çözə bilmirəm, bilmirəm.
Ədaləti yoxa çıxıb,
Tapa bilmirəm, bilmirəm.

Babakərin dağlarına,
Ləmbəlinin bağlarına,
Yetim qalan yollarına
Baxa bilmirəm, bilmirəm.

**Yaradandan əmanətdir bu dünya**

Bu dünyaya gələn çoxdur, qalan yox,
Qalanları niyə yoxdur dünyanın?
Bu dünyanın dərdi çoxdur, çəkən yox,
Dərd çəkəni niyə yoxdur dünyanın?

Dərd üstünə dərd yüklənib, ağırdır,
Yük altında inildəyir dünyamız.
Olanlara hamı baxdı, görmədi,
Görənlərin niyə yoxdur, dünyamız?

Hər yerindən yaralandı, dağlandı,
Sinəsinə dağ çəkilən dünyamız.
Mat qalmışam, günahı nə olubdu?
Məhv edilir, viran olur dünyamız.

Rəbbim bizə bu dünyanı veribdi,
Nə sənindir, nə mənimdir bu dünya.
Yaradanın yaratdığı əsərdir,
Yaradandan əmanətdir bu dünya.



# "O qadın mənə çox şeyi öyrətdi"

## Fəxrəddin Manafov mərhum həyat yoldaşından danışıb kövrəldi

**"Rəsmi 44, ümumilikdə 48 il bir yerdə olduğum, məni qabaqlayıb dünyasını dəyişən o qadın mənə çox şeyi öyrətdi. Deyirlər ki, qadın kişidən ağıllı olmamalıdır və s. Amma əksinə... Vahidə çox güclü bir şəxsiyyət idi".**

Bu sözləri Xalq artisti Fəxrəddin Manafov Mehriban Ələkbərzadənin "Ağ & qara" layihəsində deyib. Aktyor ötən il dünyasını dəyişən həyat yoldaşı Vahidə Sadıqovadan bəhs edib. Manafov xanımından danışarkən kövrəlib:

"Deyirlər ki, qadın kişidən ağıllı olmamalıdır... Amma əksinə... Vahidə çox güclü bir şəxsiyyət idi. Vahidə çox ağıllı, zəkalı, oxumuş, intellektual, istedadlı, maraqlı insan idi. Dünyasını dəyişəndə mən bir söz dedim. Özüm də şaşırdım. Dedim ki, mən səninlə sona qədər tanış ola bilmədim. Qadın bir gücdür. Onu oxumaq, onu qaldırmaq, onu anlamaq mümkün deyil. Heç cürə... Qadın mənim əxlaqımdır, yerişimdir, danışığımdır. Qadın məni tərbiyə edir. Məndən, ilk növbədə, insan olmağı, kişi olmağı tələb edir.

# Real TV "Taliban" haqqında film hazırlayıb

## Komandanın səfərə yollandıqları gün də ölkədə terror baş verib

**REAL televiziyası bir ildir Əfqanıstanda hakimiyyəti ələ keçirən "Taliban" haqqında film hazırlayıb.**

**Bu barədə "Report"a televiziyadan məlumat verilib.**

Məlumata görə, 40 ildən çox qeyri-sabit siyasi şəraitdə olan Əfqanıstan haqqında sənədli film ərsəyə gətirməkdə məqsəd bu ölkəni Azərbaycan izləyicisinə olduğu kimi təqdim etməkdir.

Real TV-nin çəkiliş heyəti Əfqanıstanın müxtəlif ərazilərində olub, əfqan xalqının son illər ərzində yaşadığı dəhşətləri lentə alıb. Gün ərzində bu ölkədə 200-250 nəfər terrorun qurbanı olur. Real komandasının səfərə yollandıqları gün də ölkədə terror baş verib. Çəkiliş qrupunun 10 metr yaxınlığında bina partladılıb. Filmdə həmin hadisə də yer alıb.

Eyni zamanda filmdə eksklüziv olaraq çəkiliş qrupu "Taliban" liderlərindən müsahibə



almaq fürsəti də əldə edib. Müəllifin konkret suallarını 1 ildir ki, hakimiyyətdə olan və Əfqanıstana nəzarət edən "Taliban" qruplaşmasının liderləri Zabiullah Mujahid və Abdul Basir Sabiri cavablandırıb.

Filmin adı "Dar-ul-hərb", yəni "müharibə evi"dir. Adın seçilməsinin də öz mənası var. Belə ki, İslam tarixində "Dar-ul-hərb", ideyasını coğrafi prizmadan və sadə dillə izah etsək, bu o deməkdir ki, müsəlmanların yaşadıqları ərazilər ilə qeyri-müsəlmanların yaşadığı ərazi arasında sərhədlər bəlli olur. "Dar-ul-hərb" tarixi müsəlman-qeyri-müsəlman qarşıdurmasından daha çox, islamın özünün içində təfriqələrin artması və xarici qüvvələrə qarşı zəifləməsi ideyasına çevrilib. Filmin yekununda əslində Əfqanıstanda, yəni "Müharibə evin"də yaşananların tam izahı verilir.

Filmin ssenari müəllifi və rejissoru Vəfa Ağabalayeva, quruluşçu operatoru isə Arif Zeynalovdur. Film 17 noyabr saat 20.00-da Real TV-də yayımlanacaq.





### Təbrik

1997 və 2022... Bu illər arasında qara göz, totuş, istəkli balamız böyüdü, uzun saçlı, qamətli, həm də çağdaş Şərq gözəli oldu. Anasının daim "anamdı", deyib oxşadığı Törə xanımın 1997-ci ildə ilk ad gününü təbrik etmişdim, doğma "Şərq" qəzetinin səhifəsində. Bu gün isə toy gününü – sevib-seçdiyi, əllərini əlləriylə, ömrünü ömrü ilə birləşdirdiyi Cahangir bəylə birgə həyata başlamasını təbrik edirəm. Uca Rəbbimiz hər iki balamızın qoşa addımladıqları yolu iman işığı ilə nurlandırsın. Bəxtləri ağ, günləri xoş olsun. Qurduqları yuvada gülüş səsləri əskik olmasın. Amin!

**Hörmətlə, Məlahət Rzayeva**



# Aftandil İsrafilov əməliyyat olundu

## Xalq artisti özünü yaxşı hiss etdiyini bildirib

**Xalq artisti Aftandil İsrafilov əməliyyat edilib.**

O, Elgizlə izlə verilişinə canlı bağlantı ilə səhhətindən danışıb.

Xalq artisti vəziyyətinin cərrahi səbəbdən pisləşdiyini desə də dəqiq diaqnozunu bildirməyib. O, özünü yaxşı hiss etdiyini və hər kəsin ona diqqət göstərdiyini bildirib.

# "İlahiyyat TV" yutub kanalı fəaliyyətə başlayır



**Azərbaycan İlahiyyat İnstitutunun (AİI) yeni layihəsi "İlahiyyat TV" fəaliyyətə başlayır.**

İnstitutdan "Şərq"ə verilən məlumata görə, layihənin məqsədi İslam və digər elmləri özündə ehtiva edəcək proqramlarla dini maarifləndirmə istiqamətində doğru və düzgün məlumatlar vermək, eyni zamanda, sosial-psixoloji və aktual problemləri müzakirə etməkdir.

"İlahiyyat TV" yutub platforması üzərindən İslam elmləri, dünya dinləri, din sosiologiyası, din psixologiyası və fəlsəfəyə aid proqramlar və dərslərin yayımlanmasını nəzərdə tutur.

İlkin olaraq "Müasir dünya və din" və "İslam deyir ki..." proqramlarının, eyni zamanda, Təfsir, Hədis və Ərəb dili (danışıq) dərslərinin çəkilişlərinə başlanılıb.

*Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutu tədrislə yanaşı, cəmiyyətin dini maariflənməsi istiqamətində bir sıra layihələr həyata keçirir.*

# Bakıda 22 il sonsuzluqdan sonra əkizlər doğuldu

## Körpələr 20 günlük müalicədən sonra sağlam şəkildə ailələri ilə birlikdə evə yola salınıb

**Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutuna (ETMGİ) müraciət edən hamilə qadın 22 il sonsuzluq sonrası əkiz övladlarını dünyaya gətirib.**

"Medicina" xəbər verir ki, 27-28-ci həftələrdə ağır vəziyyətdə mama-ginekoloq, t.ü.f.d. Leyla Süleymanovanın konsultasiyasına gələn qadın dərhal stasionar müalicə üçün Hamiləliyin patologiyası şöbəsinə yerləşdirilib. Həkim tərəfindən aparılan düzgün müalicə planı nəticəsində çətin vəziyyət aradan qaldırılıb.



Daimi olaraq nəzarətdə olan qadına hamiləliyin 34-cü həftəsində vəziyyəti ilə əlaqədar təcili olaraq cərrahi doğuş təyin edilib. L.Süleymanova tərəfindən uğurla icra olunan qeysəriyyə kəsiyi ilə hər ikisi oğlan olan körpələr dünyaya gəlib.

Vaxtından əvvəl dünyaya gələn azçəkili əkiz körpələr Yenidoğulmuşların Reanimasiya və İntensiv Terapiyası şöbəsinin həkim-neonatoloqları Aynur Bağırova, Lalə Rzayeva və tibbi personal tərəfindən aparılan müayinə və müalicə nəticəsində normal Fizioloji şöbəyə yerləşdirilib.

İnkişaflarına və mövcud problemlərinə düzgün nəzarət etmək üçün davamlı olaraq şüa-diaqnostika üzrə həkim Təranə Kərimovanın ultrasəs müayinə etdiyi körpələr təxminən 20 günlük stasionar müalicədən sonra sağlam şəkildə ailələri ilə birlikdə evə yola salınıb.

# Bakcell Qarabağda 101-ci baza stansiyasını istifadəyə verdi!




**Bakcell şirkəti Qarabağda özünün 101-ci baza stansiyasını uğurla istifadəyə verib.**

Bununla da şirkət ilin əvvəlində qarşıya qoyulan plana uyğun olaraq 2022-ci ildə işğaldan azad olunmuş ərazilərdə şəbəkəsinin genişləndirilməsinə 23 milyon manat həcmində investisiya yatırıb.

Burada quraşdırılmış 4G baza stansiyaları sayəsində abunəçilər ən müasir səs texnologiyası olan VoLTE üzərindən daha sürətli, aydın və kəsintisiz zəng edə bilirlər.

2022-ci ildə Bakcell şəbəkəsi növbəti dəfə Ookla® tərəfindən "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" kimi tanınıb.

Şirkət işğaldan azad edilmiş ərazilərimizin bərpası və zəruri infrastrukturun yaradılması istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlərdə fəal iştirakını davam etdirəcək.

### Elan

Qarabağ rayonu, Korgöz qəs. Mahmudov İlqar Əhməd oğlunun adına 3 sot torpağın bələdiyyə sənədi itdiyi üçün etibarsız sayılır.


**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**

**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova**

**Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.**
**Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
**SWIFT BIK AII-BAZ2X h/h**
**AZ17AIIB38070019441100466111**
**Kod 200112 M/H**
**AZ37NABZ01350100000000001944**
**VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 3272**



## Sağıb soyuducuya yığır

### Yeni ana olan qadının günə 7 litr südü olur

**ABŞ-da hiperlaktasiyadan əziyyət çəkən yeni ana olan qadın südü çox olduğundan məcbur qalaraq südünü sağıb, soyuducuda saxlayır. "Medicina" xəbər verir ki, qadından gündə 7 litr süd yaranır.**

Bu vaxta kimi südü az olan analara 2400 litrdən çox ana südü verib.

Hazırda soyuducuda 147 litr dondurulmuş süd yığılıb.

2 uşaq anası olan gənc qadın hər 5 saatdan bir süd sağmalı olur

Hiperlaktasiya- hormonal pozuntu səbəbindən onun süd vəziləri 10 dəfə çox süd hasil edir.

## Motosikletçi qayadan yıxılaraq öldü



**Novorossiysk yaxınlığında 38 yaşlı motoidman ustası Mixail Blumenfeld qəzaya uğrayıb.**

Oxu.az xəbər verir ki, faciə Abrau-Dyursodakı Limançik ərazisində baş verib.

İsmançı uçurumdan yıxılıb. Hadisəni sağ yamacında motosiklet sürən Mixaili müşayiət edən dostu çəkib.

Yaraşçı bir anda idarəetməni itirərək büdrəyib və yıxılıb. Onu xilas etmək mümkün olmayıb. Blumenfeld aldığı xəsarətlərdən yerindəcə keçinib.

## 9 milyonluq texnologiya səsini qoruyacaq

### Adel mümkün olan ən yaxşı havanı alır



Adel Las-Veqasda səhnəyə çıxmasına cəmi 24 saat qalmış "Weekends with Adele" adlı konsert seriyasına başlayır. Noyabrın 18-də "The Colosseum at Caesars Palace"da başlayacaq şoular üçün işə başlayan 34 yaşlı ingilis müğənni səsini qorumaq üçün çox ciddi hazırlıqlar görür. Məşhur müğənninin səsini qorumaq üçün 400 min sterlinq (təxminən 9 milyon lirə) texnologiyadan istifadə edəcəyi öyrənilib.

Prankstersə yaxın bir mənbə "The Mirror" qəzetinə danışıb: "Əvvəllər mürəkkəb sistemlər quraşdırılıb, lakin bu, həqiqətən başqa səviyyədədir. Hazırlıq otağında nəmləndiriciləri, təmizləyici qurğuları, su molekulunun dispersiyasını və soyuducu fanatları birləşdirərək işləyir və sonra həmin havanı yerinə yetirərkən səhnəyə yönəldir. Adel səsini qorumaq üçün mümkün olan ən yaxşı havanı alır".

**Turan**

## 1 milyon avro ödəyib

### Kıvanç Tatlıtuğ Eyfel qülləsinin yaxınlığında ev aldı



**Türkiyəli aktyor Kıvanç Tatlıtuğ həyat yoldaşı Başak Dizerlə evləndiyi Paris şəhərindən ev alıb.**

Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, cütlüyün yeni əmlakı Eyfel qülləsinin yaxınlığında yerləşir.

Tatlıtuğ evi üçün 1 milyon avro (təxminən 1 milyon 753 min manat) ödəyib.

Qeyd edək ki, aktyor tezliklə "Ailə" serialında rol alacaq.







# Dəhşətli terror

## 6 yarımçıq tale və 6 acı hekayə






**İstanbulun Taksim meydanında törədilən terror hadisəsində 6 nəfər həyatını itirib, 3 ailə dağılıb. Hücum qurbanlarından ikisi uşaqdır. Ecrin 9, Yağmur isə 15 yaşındaydı. Hadisə zamanı biri 8 aylıq, digəri 2 yaşlı iki qardaş həm anasını, həm də atasını itirib.**

İstanbulun İstiqlal küçəsində törədilən partlayışda 2-si ağır olmaqla 6 nəfər ölüb, 81 nəfər yaralanıb. Hadisə yerinə gələn polis qrupları küçədə təhlükəsizlik tədbirləri görüb.

"Şərq" türk mediasına istinadən xəbər verir ki, partlayışda yaralananlar sağlamlıq qruplarının ilk müdaxiləsindən sonra ətrafdakı xəstəxanalarda müalicə altına alınıb.

İkisi uşaq olmaqla 6 nəfərin həyatını itirdiyi hücumda yaralanan 81 nəfərdən 50-si evə buraxılıb.

Bundan başqa, əməliyyatlar çərçivəsində hücumu həyata keçirən terrorçu təhlükəsizlik qüvvələri tərəfindən yaxalanıb.

Polisdən verilən şərhə görə, Suriya əsilli Əhlam Əlbəşirin PKK tərəfindən göndərildiyi açıqlanıb. Hücum əmrinin Kobanidən gəldiyi bildirilib.

Terrordan sonra geriyə acı hekayələr qalıb.

34 yaşlı Yusuf Meydan Ailə və Sosial Xidmətlər Nazirliyinin əməkdaşı olub. Uşaq Evinin Koordinasiya Mərkəzinə rəhbərlik edirdi.

O, əslində Adanada yaşayırdı. İstanbula "yaxşı bir iş" üçün, qohumunu evliliyə daşımaq üçün onu ilk addımında müşayiət edəcəkdi. O, 9 yaşlı qızı Ecrinlə İstiqlal küçəsində gəzərkən bomba partlayıb. Ata-qız ölüb.

Partlayışda həyatını itirən Arzu Özsoyun 38, qızı Yağmurun isə 15 yaşı vardı.

Ara tətilindən yararlanmaq istəyən Arzu Özsoy müəllim olub. Qızı ilə görüşüb İstiqlal küçəsində gəzintiyə çıxıblar. Ana və qızı küçədə gedərkən bomba partlayıb və onlar həyatını itirib.

Yağmur Uçarın "Diriliş Ertuğrul" serialında da rol alan aktrisa Nurettin Uçarın qızı olduğu bildirilir. Hücumda Elif və Adəm Topkara cütlüyü də həyatını itirib. Adem Topkaranın 40, Elif Topkaranın isə 37 yaşı var idi. Onlar hadisədə həyatlarını itirib, 8 aylıq körpəsi və 2 yaşlı qızları valideynsiz qalıb.

**Turan**






manı Kral Çarlz və onun həyat yoldaşı Kraliça Kamillaya yumurta atıb.

Ekoloqların "Extinction Rebellion" qrupunun da üzvü olan fəalın yumurta atmazdan əvvəl "Bu ölkə qulların qanı ilə qurulub" deyə qışqırdığı eşidilib.

# Kral Çarlza yumurta atan tələbə

## Məhkəmə xərcləri üçün ianə istəyir

**Kral Çarlz və Kraliça Kamillaya yumurta atdıqdan sonra tutulan Patrick Thelwell hüquqi xərclərini ödəmək üçün onlayn ianə kampaniyası ilə dəstək istəyir.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, 23 yaşlı tələbə "GoFundMe" saytında açdığı kampaniyada yumurta ilə çəkdirdiyi şəklini paylaşaraq 10 min sterlinq (təxminən 220 min TL) toplamaq niyyətində olduğunu bildirib.

Thelwell bildirib ki, etirazına görə 5 min funt-sterlinqə (təxminən 110 min TL) qədər cərimə və 6 aya qədər həbs cəzası gözləyir.

Digər tərəfdən saytdakı reklam müəyyən müddətdən sonra silinib. İngiltərə mətbuatında çıxan xəbərlərdə tələbənin 18 donordan 178 funt sterlinq (təxminən 4 min TL) topladığı, Thelwell isə məbləğin 500 lirəni (təxminən 11 min TL) keçdiyini bildirib.

Saytdakı elanın hansı səbəbdən silindiyi hələlik məlum deyil.

İngiltərənin məşhur tabloid qəzetlərindən biri olan "Metro"ya danışan tələbə "GoFundMe reklamım silindi, səbəbini demədilər. Çox güman ki, Kral zəng edib" deyib.

Thelwell çərşənbə günü ölkənin şimalındakı York şəhərinə səfəri za-

Hadisə yerində saxlanılan etirazçı III. Çarlza 500 metr yaxınlaşmamaq və ictimai yerlərdə yumurta ilə gəzmək qadağası buraxılıb.

İngiltərədə nəşr olunan "Dazed" jurnalına danışan Thelwell iddia edib ki, etiraz aksiyası zamanı ətrafdakı insanlar onun saçından tutub yerə yıxıblar. Fəal həmçinin iddia edib ki, kütlənin bir üzvü onu ölümlə hədələyib.

Yaşıllar Partiyasının keçmiş üzvü Thelwellin məhkəməsi dekabrın 1-nə təyin edilib.

**Turan**